

*Naxçıvan Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən biridir*

# Yeni Fikir

**Təsisçi:Naxçıvan Dövlət Universiteti**

*29 Fevral 2024-cü il, cümə axşamı*
*N: 8 (56)*
*Qəzet 2011-ci ildən nəşr olunur*


# Xəyalları gerçəkləşdirən Lider

Ümummilli Lider Heydər Əliyev qurduğu dövlətin taleyini tapşıracağı yeni Liderin seçilməsində nümayiş etdirdiyi özünəməxsus müdrikliyin miqyası illər keçdikcə daha aydın görünür, seçimin uğuru təkzibolunmaz şəkildə öz təsdiqini tapdı. Onun 2003-cü ilin prezident seçkiləri ərəfəsində prezidentliyə namizəd İlham Əliyev haqqında dediyi ***"Mən İlham Əliyevə özüm qədər inanır və onun gələcəyinə böyük ümidlər bəsləyirəm. Əminəm ki, mənim başa çatdıra bilmədiyim işləri o, başa çatdıracaqdır"*** sözləri Ümummilli Liderin uzaqgörənliyinin və seçiminin alternativsizliyinin bariz nümunəsi sayıla bilər. Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, cənab İlham Əliyevin keçdiyi həyat yolu, ictimai-siyasi proseslərdə fəal iştirakı, idarəetmədə qazandığı təcrübə, intellektual səviyyəsi və müasir dövrün siyasi xadimləri üçün xarakterik olan bütün yüksək keyfiyyətləri mənimsəməsi 2003-cü il oktyabrın 15-də Azərbaycanda keçirilən prezident seçkilərində onun şəksiz qələbəsini təmin etdi. Hələ 2003-cü ildə dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlayarkən ***"Mən hər bir azərbaycanlının Prezidenti olacağam",*** - deyən cənab İlham Əliyev cəmiyyətdə mütləq çoxluğun böyük rəğbət və etimad göstərdiyi liderə çevrilmişdir. Ötən illərin reallıqları zamanın dahisi Heydər Əliyev siyasi kursunun diktə etdiyi sülh, sabitlik və tərəqqi yolunun alternativsizliyini sübuta yetirmiş, inam və etimad üzərində qərarlaşan, gələcəyə hesablanan güclü dövlət konsepsiyası ilbəil uğurla gerçəkləşdirilmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin müdrik siyasətini dövrün tələblərinə uyğun uğurla davam etdirən dövlət başçısı İlham Əliyevin yüksək erudisiyası, mükəmməl siyasi strategiyası, sarsılmaz qətiyyəti, polad iradəsi, yorulmaz fəaliyyəti və xalqla iqtidar arasında olan sıx birliyin sayəsində planetimizin üzləşdiyi çoxsaylı qlobal çətinliklərə, ümumbəşəri ciddi və mürəkkəb problemlərə həmçinin müharibədən yeni çıxmış ölkə olmağımıza rəğmən, respublikamızda iqtisadiyyat güclənir, bütün sahələrdə mütəmadi olaraq mütərəqqi islahatlar həyata keçirilir, regionların tarazlı inkişafının davamlılığı təmin olunur, hər bir istiqamət üzrə ardıcıl uğurlar əldə edilir ki, nəticədə dövlətimiz daha da qüdrətlənir və doğma Azərbaycanımız durmadan çiçəklənir.

Azərbaycan dövləti, Azərbaycan xalqı cənab İlham Əliyevin rəhbərliyi altında gələcəyə, yüksəlişə və inkişafa doğru dahi şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu yolla inamla irəliləyir və hər bir ölkə vətəndaşının fəxr edəcəyi, qürur duyacağı bir məkana çevrilir. Ötən illər aşkar şəkildə göstərdi ki, cənab İlham Əliyev öz fəaliyyət dövrünü bu amalın reallaşmasına həsr etmiş, Ulu öndərimizin müstəqillik və azadlıq ideyalarını dönmədən həyata keçirmiş, Azərbaycanı sosial-iqtisadi inkişaf demokratik hüquqi dövlət quruculuğu və siyasi sabitlik baxımından dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirmişdir.

***İslahatların yeni dalğası***

Prezident İlham Əliyev 2018-ci il aprelin 18-də andiçmə mərasimində islahatların yeni dalğasını anons etmiş, ölkənin ictimai-siyasi-mədəni həyatının hər bir sahəsini əhatə edən çoxşaxəli islahatların yeni mərhələsi başlanmışdır. Dövlətimizin başçısı islahatlar modelini yığcam olaraq belə ifadə etmişdir: ***"Biz məqsədyönlü, düşünülmüş addımlar atırıq ki, ölkəmizin inkişafına yeni təkan verək, hələ də həll olunmamış problemləri həll edək, nöqsanları, xoşagəlməz halları, çatışmayan məqamları aradan götürək və bunu edirik".*** Bu gün hakimiyyətin bütün qollarında qanunverici, icraedici və məhkəmə hakimiyyətlərində islahatlar gedir, prosesi asanlaşdırmaq məqsədilə yeni hüquqi aktlar qəbul edilir, heç bir dövlət orqanı yenilənmə, islahat kursundan kənarda qalmır.

2020-ci ildə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş hərbi təxribatla əlaqədar müstəqillik tariximizdə ilk dəfə olaraq ölkədə fəaliyyət göstərən siyasi partiyaların 43-ü, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı ilə əlaqədar 52 siyasi partiyadan 50-si, həmin il oktyabrın 10-da Fransanın Qarabağ münaqişəsi ilə bağlı tutduğu ədalətsiz mövqeyə dair 50 siyasi partiya, oktyabrın 12-də Ermənistanın yeni hərbi təcavüzü, dinc sakinləri, uşaqları, mülki obyektləri, beynəlxalq nəqliyyat-kommunikasiya və tranzit xətlərini hədəfə alması haqqında 50 siyasi partiya sədri daxil olmaqla 140 tanınmış ziyalı, ictimai-siyasi fəal, etnik azlıqların nümayəndələri beynəlxalq və regional təşkilatlara birgə bəyanat və müraciətlər ünvanlamışlar. Bəyanat və müraciətlərdə siyasi partiyalar, vətəndaş cəmiyyəti institutları Müzəffər Ali Baş Komandanı Vətənimizin ərazi bütövlüyünün və vətəndaşların təhlükəsizliyinin qorunması, Ermənistanın ölkəmizə genişmiqyaslı terror təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirdiyi bütün siyasi-hərbi tədbirləri yekdilliklə dəstəklədiklərini və onun yanında olduqlarını bildirmiş, beynəlxalq təşkilatların, ATƏT-in Minsk qrupu həmsədrlərinin ikili standartlardan çıxış etməsi tənqid olunmuşdur.

2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad olunması münasibətilə 50 siyasi partiya Prezident, Müzəffər Ali Baş Komandanı təbrik edərək, bu qələbəni illərlə yürüdülmüş müdrik siyasətin, siyasi uzaqgörənliyin, iqtisadi islahatların, xalqın iqtidara göstərdiyi yüksək etimadın, xalq-dövlət vəhdətinin ən ali təcəssümü olduğunu bildirdilər.

***Xalqa əbədi Zəfər bəxş edən Müzəffər Prezident***





Xalqımız öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək müasir Azərbaycan tarixinin ən böyük uğurunu, bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə – Ali Baş Komandana sahib olduğunu aşkar gördü. 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Uzaqgörən lider İlham Əliyevin həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüzün birmənalı olaraq təsdiq etdi. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə kimi deyil, diplomatik cəbhədə də böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Cənab Prezidentin televiziya kanallarına verdiyi müsahibələr dünyanın dörd tərəfinə yayılan haqq səsimiz idi. Cənab Prezidentin dediyi kimi ***"Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan hərbi birləşmələrinin heç bir hədəfi, heç bir məqsədi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və torpaqlarımızı işğaldan azad edəcəyik".***

44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərin məhz 2023-cü ildə tamamlanması rəmzi məna daşıyır. Xankəndi Zəfəri "Heydər Əliyev İli"nə ən böyük töhfədir. Vətən müharibəsində əldə olunan tarixi Zəfərdən üç il sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Xankəndidə separatçı rejimin ləğv edilməsi, Azərbaycanın müstəqilliyini, hər bir qarış torpağı üzərində suveren hüququnun tam bərpa edilməsi kimi tarixi missiya tam yerinə yetirildi. 2023-cü il noyabr ayının 8-də Qarabağın mərkəzində, Xankəndi şəhərində Vətən müharibəsində qələbəmizin 3-cü ildönümü münasibətilə hərbi paradın keçirilməsi hər birimizdə qürur



doğurdu. Birmənalı olaraq haqq savaşımızda əldə etdiyimiz qələbə Azərbaycan tarixində, Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı bu qələbə sayəsində qalib xalq kimi özünü dünyaya bəyan etdi. Ali Baş Komandan Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək, xalqımıza özünün çoxəsrlik tarixində ən böyük uğuru və xoşbəxtliyi yaşatdı.

***Qələbəmizdən doğan tarixi reallıq***

Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Dünya artıq Azərbaycanı regionun lideri, qlobal layihələr həyata keçirən, islahatlar aparan, əməkdaşlıq və Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş kimi qəbul edir. Son 20 ildə cənab İlham Əliyevin yürütdüyü müstəqil siyasətlə Azərbaycan xarici əlaqələrini, siyasi-iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır. Digər tərəfdən, Azərbaycan bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, həmçinin mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirirlər və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər. Azərbaycanın mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Ölkə Prezidenti İlham Əliyevin Avropa liderlərinin dəvəti ilə ən mötəbər tədbirlərə dəvət alması, yüksək tribunalardan çıxışı, ən yüksək səviyyədə qarşılanması ölkəmizin artan nüfuzunun bariz nümunəsidir. Nəticədə Avropa ölkələri Azərbaycanla əməkdaşlığa yüksək önəm verir, Prezident İlham Əliyevi Avropa üçün ən önəmli LİDER hesab edirlər.

***Milyonların sevgisini qazanan LİDER***

Son 20 ilin uğurları, tarixə yazdığı möhtəşəm qələbələri, deməyə əsas verir ki, dövlətimizin başçısı qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olmaq üçün istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə düşünülmüş və məqsədyönlü siyasət həyata keçirərək Azərbaycanın timsalında "Güclü dövlət" konsepsiyasını reallaşdırmağa nail olmuşdur. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə çox qısa zaman kəsiyində ölkəmizin qazandığı bütün bu uğur və qələbələr Ümummilli Liderin dediyi:-***"Gün gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq"*** sözlərini gerçəkləşdirdi.

***Qalib xalqın Qalib Prezidenti***

44 günlük Vətən Müharibəsi və 2023-cü ilin antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası həm regionda, həm də ölkəmizdə yeni reallıqlar yaradıb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa verdiyi sözə tam əməl etdi. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, üçrəngli bayrağımızı Xankəndində, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda şərəflə dalğalandırdı.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə növbədənkənar prezident seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunması ərazi bütövlüyümüzün və suverenliyimizin təsbiti idi. Bu seçki həm də Zəfər seçkisi idi. Bu seçki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünə inamının, xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisi idi. Son 20 ildə bütün bu uğurların şahidinə çevrilən Azərbaycan xalqı əldə olunan nailiyyətləri ölkə Prezidenti İlham Əliyevin ümummilli maraqlara söykənən məqsədyönlü siyasətinin məntiqi nəticəsi hesab edir. Ölkəmizin gələcəyini bu siyasi kursun ətrafında sıx birləşməkdə görən xalqımız yeni seçkilərdə növbəti dəfə cənab İlham Əliyevə etimad göstərərək xarici və daxili siyasətini dəstəkləmiş oldu. Xalqımızın yüksək etimadı ölkəmizin və regionumuzun daha parlaq gələcəyi üçün müstəsna əhəmiyyətə malikdir.


***Arzu Abdullayev***
***NDU-nun sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru***



*Səlahiyyətli nümayəndə "Açıq mikrofon" layihəsində iştirak edib* **2**
*Naxçıvan Muxtar Respublikasının hüquqi statusu* **3**
*Jurnalist tələbələr muxtariyyətin 100-cü ilindən yazır...* **4**
*Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələri genişləndirilir* **5**
*"Türk dünyasına açılan Şərq qapısı : NAXÇIVAN 100" adlı konfrans keçirilib* **6**
*Xocalıda bayrağımız əzəmətlə dalğalanır* **7**
*Sağlam gələcəyin təminatı-xoşbəxt gənclik* **8**

# Səlahiyyətli nümayəndə “Açıq mikrofon” layihəsi çərçivəsində tələbələrin suallarını cavablandırıb

Fevralın 22-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan Dövlət Universitetində keçirilən “Açıq mikrofon” layihəsi çərçivəsində tələbələrlə görüşüb.

Tədbirdədə Naxçıvan Dövlət Universitetinin və universitetin nəzdində fəaliyyət göstərən kolleclərin tələbələri iştirak ediblər.

Görüşdə çıxış edən səlahiyyətli nümayəndə universitet tələbələri ilə əvvəlki görüşləri xatırlayaraq ötən dövrdə görülən işlər barədə məlumat verib. Qeyd edib ki, “Heydər Əliyev İli”ni qeyd etdiyimiz 2023-



cü il Naxçıvan Muxtar Respublikası üçün uğurlu il oldu, Heydər Əliyev irsi geniş təbliğ olundu. Ulu Öndərimizin zəngin dövlətçilik yolundan bəhs edən Fuad Nəcəfli gənclərin hər birinə əbədiyaşar liderimiz qədər vətənpərvər olmağı, Vətənini sevməyi arzulayıb. Vurğulanıb ki, bu siyasət bu gün ölkəmizdə Prezident İlham Əliyev tərəfindən böyük uğurlar və qələbə əzmi ilə davam etdirilir.

Fuad Nəcəfli bildirib ki, ötən dövrdə əhali ilə mütəmadi görüşlər keçirilib, muxtar respublikanın gələcək inkişaf istiqamətləri müəyyənləşdirilib. Ölkə başçısının 5 iyun 2023-cü il tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının sosial-



iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib və icrası üçün maliyyə vəsaiti ayrılıb. Çoxvektorlu Dövlət Proqramı sosial-iqtisadi həyatın bütün sferalarını əhatə edir. Proqrama əsasən bu il yaranmasının 100-cü ildönümünü qeyd etdiyimiz Naxçıvan Muxtar Respublikasında xüsusi iqtisadi rejim tətbiq olunacaq, diyarımızın iqtisadi inkişafı üçün daha geniş imkanlar açılacaq. Ötən ilin sonlarından icrasına başlanılan proqramın hədəf aldığı bu istiqamətlərdən biri də etibarlı gəncliyin yetişdirilməsi üçün təhsilin hərtərəfli inkişafına nail olmaqdır. Proqramda Naxçıvan Dövlət Universitetini daha da inkişaf etdirəcək layihələrin icrası nəzərdə tutulur.

Sonra söz Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn İmanovun moderatorluğunda tələbələrə verilib. Səlahiyyətli nümayəndə 2 saatdan artıq bir müddətdə yerli və xarici tələbələrin, eləcə də universitetin gənc əməkdaşlarının ünvanladığı 30-dan çox sualı ətraflı cavablandırıb, müraciət və təkliflərini dinləyib.

Sualları cavablandıran səlahiyyətli nümayəndə bildirib ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası çərçivəsində Naxçıvan Dövlət Universiteti üçün ikinci tədris kampusu inşa ediləcək. İngilisdilli tibb təhsili aparılacaq yeni kampus bu sahəyə dair bütün müasir təchizatla təmin olunacaq. Dünya nəhəngi olan IBM şirkəti ilə imzalanan memorandum gənclərimiz üçün



mühüm perspektiv vəd edir. Bu əməkdaşlıq çərçivəsində Naxçıvan Dövlət Universitetinin tabeliyində Beynəlxalq Proqramlaşdırma İnstitutu yaradılacaq.

Vurğulanıb ki, tələbələrin xarici dil biliklərinə yiyələnməsi müasir dövrün əsas tələblərindəndir. Ötən ildən İngilisdilli tibb ixtisasının fəaliyyətə başlaması, eləcə də universitetin Beynəlxalq Məktəbinin istifadəyə verilməsi, bu mənada, mühüm önəm daşıyır. Universitetin nəzdində fəaliyyət göstərən Beynəlxalq Məktəbdə tədris Kembric təhsil proqramına əsaslanan metodologiya üzrə qurulacaq. Bütün bunlar Naxçıvanın gələcək inkişafı üçün çox böyük töhfələrdir. Çünki qarşıda mühüm hədəf var: dövrün reallıqları və tələblərinə əsaslanan ixtisaslı gənclər yetişdirmək.

Fuad Nəcəfli gənclərin gələcək karyera və iş imkanları, tələbələr üçün müvafiq güzəştlərin tətbiqi, təkliflərinin, startap layihələrinin dəyərləndirilməsi, idarəçilik sistemində irəli çəkilməsi, eləcə də digər mövzularda müraciətlərinə uyğun olaraq diqqətə çatdırıb ki, gənclərin şəxsi, kollektiv və peşəkar inkişafı məqsədilə tədbirlərin keçirilməsi, əmək bazarının tələblərinə uyğun ixtisaslı gənclərin sayının artırılması qarşıda duran əsas hədəflərdəndir. Sözügedən Dövlət Proqramına uyğun olaraq ali, orta ixtisas və peşə təhsili səviyyələri üzrə tədris mövcud tələblərə, o cümlədən sənaye müəssisələrinin tələblərinə uyğun qurulacaq. Həmçinin gənclərin asudə vaxtlarının səmərəli təşkili, şəxsi inkişafı istiqamətində fəaliyyətin təşkili məqsədilə Gənclərin İnkişaf və Karyera Mərkəzi yaradılacaq.

Fuad Nəcəfli səmimi görüşdə tələbə-gənclərə vətənpərvər və milli ruhda fəaliyyət göstərməyi, intellektli, savadlı gənclik kimi formalaşmalarını, bilik və bacarıqlarını ölkəmizin inkişafı naminə səfərbər etmələrini tövsiyə edib, tədrisdə və gələcək karyeralarında uğurlar arzulayıb.

Sonda “Açıq mikrofon” layihəsinin bütün iştirakçıları ilə xatirə fotosu çəkdirilib.

# Universitet-sənaye işbirliyinə mühüm töhfələr

***Naxçıvan Dövlət Universiteti ilə sahibkarlıq şirkətləri arasında əməkdaşlıqların əsası qoyulub***

Naxçıvan Dövlət Universiteti sənaye sahələri ilə əməkdaşlığı inkişafının prioritet istiqaməti hesab edir və ali təhsil ocağının əməkdaşlıqlarında sənaye iş birlikləri mühüm əhəmiyyət daşıyır.

Bu məqsədlə Naxçıvan Sahibkarlar Konfederasiyası və Cahan Holdinqin nümayəndələri ilə keçirilən görüşdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayıb, belə görüşlərin gələcəkdə hər iki tərəf üçün verəcəyi perspektivləri qeyd edib, dünya təcrübəsində bu cür işbirliyinin nə dərəcədə vacib rol oynadığını vurğulayıb. Rektor diqqətə çatdırıb ki, ali təhsil müəssisəsinin reytinq sıralamasında, nüfuzlu univer-



sitetlər sırasında yer almasında, qiymətləndirilməsində bu cür əməkdaşlıqların xüsusi əhəmiyyəti vardır.

Elbrus İsayev şirkətlə uzun illərdir qurulan əlaqələrdən danışıb. Vurğulanıb ki, işgüzar münasibətlər rəsmiləşdirilməli, müvafiq qanunlar çərçivəsində həyata keçirilməlidir.

“Cahan” Holdinqin təsisçisi, Naxçıvan Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov belə görüşlərin davamlı keçirilməsinin əhəmiyyətli məqamlarına toxunub, əmək bazarında universitetlər və müəssisələr arasındakı münasibətlərdə davam edən dəyişikliklərin bütövlükdə cəmiyyətdə aparılan islahatların ayrılmaz hissəsinə çevrildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, dövlət orqanları, qeyri-hökumət təşkilatları, müvafiq idarə, müəssisələr universitetlərimizə dəstək olmalı, qarşılıqlı əməkdaşlıqlar rəsmi qaydalara uyğun aparılmalıdır. Vüqar Abbasov birgə fəaliyyət planının hazırlanması barədə təkliflərini diqqətə çatdırıb.

Görüşdə təhsil və sənaye sahələrində daha böyük nailiyyətlər əldə etmək məqsədilə müxtəlif layihələr və proqramlar, universitetdə yaradılacaq Texnoparkda “Cahan Holdinq” ilə iş birliyi çərçivəsində tədqiqat və innovasiyaların inkişafına nail olmaq məqsədilə sənaye təcrübəsi və universitetin akademik potensialının birləşdirilməsi də nəzərdə tutulub.

Naxçıvan Sahibkarlar Konfederasiyası və Cahan Holdinqin nümayəndələrinin əməkdaşlıq barədə təklifləri dinlənilib.



Sonra ikitərəfli əməkdaşlığın perspektivləri nəzərə alınmaqla Naxçıvan Dövlət Universitetinin innovativ inkişafını dəstəkləyən qarşılıqlı əməkdaşlıq müqaviləsi imzalanıb.

Elbrus İsayev universitet adından Təşəkkürnamə və hədiyyəni Vüqar Abbasova təqdim edib.

***

Naxçıvan Dövlət Universitetində



keçirilən növbəti görüş “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında keçirilib. Universitetin rektoru Elbrus İsayev belə görüşlərin gələcəkdə hər iki tərəf üçün verəcəyi məqamlara toxunub.

Elbrus İsayev şirkətlə aparılan əməkdaşlıq əlaqələrindən danışıb. Vurğulanıb ki, universitetin müvafiq ixtisaslar üzrə tələbələri şirkətdə təcrübəyə cəlb olunmaqla gələcəkdə bu istiqamətdə peşəkar mütəxəssis kimi formalaşa bilər.

“Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçisi və direktoru Teymur Rzayev belə görüşlərin davamlı keçirilməsinin mühüm məqamlarına toxunaraq əmək bazarında belə əməkdaşlıqların cəmiyyətdə aparılan islahatların ayrılmaz tərkib hissəsi olduğunu qeyd edib.

Görüşdə təhsil və sənaye sahələrində daha böyük nailiyyətlər əldə etmək məqsədilə müxtəlif layihələr və proqramlar, universitetdə yaradılacaq Texnoparkda “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə iş birliyi çərçivəsində tədqiqat və innovasiyaların inkşafına nail olmaq məqsədilə sənaye təcrübəsi və universitetin akademik potensialının birləşdirilməsi də nəzərdə tutulub.

Sonra ikitərəfli əməkdaşlığın perspektivləri nəzərə alınmaqla Naxçıvan Dövlət Universitetinin innovativ inkişafını dəstəkləyən qarşılıqlı əməkdaşlıq müqaviləsi imzalanıb.

Elbrus İsayev müxtəlif tədbirlərdə və



layihələrdə şirkətin verdiyi dəstəyə görə Teymur Rzayevə universitet adından təşəkkürnamə təqdim edib. Qarşılıqlı hədiyyələr təqdim olunub, görüşdən xatirə olaraq foto çəkdirilib.

***

Naxçıvan Dövlət Universitetində keçirilən növbəti görüş “APF Group” Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndələri ilə baş tutub. Bu məqsədlə keçirilən görüşdə Naxçıvan Dövlət



Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayıb, belə görüşlərin gələcəkdə hər iki tərəf üçün verəcəyi perspektivləri qeyd edib.

Yeni yaradılmış “APF Group” Məhdud Məsuliyyətli Cəmiyyətinin sədri Fuad Əlizadə qeyd edib ki, fəaliyyət göstərdiyi şirkət çoxprofilli olmağı ilə fərqlənir və inşaat, kənd təsərrüfatı, otelçilik və qida sektorları olmaqla 4 əsas sahəni əhatə edir. Şirkətlər qrupunun başlıca missiyası iqtisadiyyatın qeyri-neft bölməsində düşünülmüş investisiya qoyuluşu edərək ölkəmizdə artan investisiya tələbatının qarşılanmasına töhfə vermək, müasir texnologiya və innovativ həllərin tətbiqini, müştəriyə yönəlik xidmət konsepsiyasını təşviq etməkdir.

Görüşdə təhsil və sənaye sahələrində daha böyük nailiyyətlər əldə etmək məqsədilə müxtəlif layihələr və proqramlar, universitetdə yaradılacaq Texnoparkda “APF Group” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə iş birliyi çərçivəsində tədqiqat və innovasiyaların inkşafına nail olmaq məqsədilə sənaye təcrübəsi və universitetin akademik potensialının birləşdirilməsi də nəzərdə tutulub.

Sonra ikitərəfli əməkdaşlığın perspektivləri nəzərə alınmaqla Naxçıvan Dövlət Universitetinin innovativ inkişafını dəstəkləyən qarşılıqlı əməkdaşlıq müqaviləsi imzalanıb.

Elbrus İsayev universitet adından təşəkkürnaməni Fuad Əlizadəyə təqdim edib.

***

Qeyd edək ki, əməkdaşlıqlar akkreditasiya qaydalarına uyğun olaraq nəticələrə əsaslanan universitet-sənaye əməkdaşlığının yaradılmasına dəstək, tədqiqat, təlim, innovasiya, texnoloji inkişaf və potensialın gücləndirilməsi vasitəsilə ali təhsil üzrə kadr hazırlığı səviyyəsini artırmaq və təkmilləşdirmək, regionların dayanıqlı inkişafına dəstək məqsədilə müxtəlif əməkdaşlıq təşəbbüslərinin yaradılması üçün mexanizm yaratmaq və vasitələrlə təmin etmək məqsədilə yaradılıblar. Müqavilələrdə universitetin tədqiqat mərkəzləri və inkubasiya proqramları vasitəsilə sənaye sahələrində mövcud imkanlardan yararlanaraq startap və spin-off layihələr hazırlanmasını təşviq etməklə ortaq tədqiqatların aparılmasını dəstəkləmək, müvafiq ixtisasların maddi texniki bazasının təkmilləşdirilməsinə yönəlmiş fəaliyyətlər icra etmək və tələbələrin motivasiyası və təhsildə nailiyyətlərinin dəstəklənməsi üçün stimullaşdırıcı tədbirlər görmək məsələləri öz əksini tapıb. Eyni zamanda əməkdaşlıqlar gənc tədqiqatçıların və tələbələrin sənaye profesionalları və ixtisaslı mütəxəssislərlə əlaqə yaratması, elmi nailiyyətlərin sənayedə tətbiqinə dair təcrübəyə nail olmaq üçün mentorluq proqramı və təcrübə proqramlarının dəstəkləmək məqsədlərini də əhatə edib.

***Səadət Əliyeva Media və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# Naxçıvan Muxtar Respublikası

## Naxçıvan Muxtar Respublikasının hüquqi statusu

***2024-cü ildə Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvanın muxtar respublika kimi təsis olunmasının 100 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 30 dekabr tarixli Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğu nəzərə alınaraq, Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi geniş qeyd olunur.***

Naxçıvanın muxtariyyəti tarixi zərurətdən irəli gəlmişdir. Belə ki, 1918-1920-ci illərdə bölgədə çox mürəkkəb tarixi şəraitin yaranması, Zəngəzurun itirilməsi nəticəsində Naxçıvan torpağının Azərbaycandan ayrı düşməsi uzun illərdən bəri xarici havadarlarının köməyi ilə bu diyara sahib olmağı arzulayan ermənilərі cəsarətləndirmişdir. Lakin Naxçıvanı Ermənistana birləşdirmək cəhdi yerli əhalinin kəskin etirazı ilə qarşılaşmışdır. 1921-ci ilin yanvar ayında Naxçıvanda onun Azərbaycan SSR tərkibinə daxil olması barədə referendum keçirilmiş, rəy sorğusunun nəticəsində əhalinin 90 faizi Naxçıvan diyarının Azərbaycan SSR-in tərkibində qalmasına tərəfdar çıxmışdır.

Naxçıvanın muxtariyyət statusu ilk dəfə 16 mart 1921-ci il tarixli Moskva müqaviləsində öz əksini tapmışdır. Həmin müqavilənin 3-cü maddəsinə görə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi kimi təşkil edilir, o şərtlə ki, Azərbaycan bu protektoratlığı heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir. Analoji müddəa 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinin 5-ci maddəsində də təsbit olunmuşdur. Moskva və Qars müqavilələri beynəlxalq hüquqi akt kimi Naxçıvan Muxtar Respublikasının gələcək mövcudluğunun və inkişafının təminatçısı oldu. SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR-in sonrakı konstitusion aktları bu beynəlxalq müqavilələri əsas götürdülər. Bu, Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun “Azərbaycan SSR-in tərkibində muxtar Naxçıvan diyarının yaradılması haqqında” 1922-ci il noyabr tarixli qərarında da öz əksini tapmış və Birinci Zaqafqaziya Sovetlər qurultayının 12 dekabr 1922-ci il tarixli xüsusi qərarında tanınmışdı.

16 mart 1921-ci il tarixdə elan edilmiş Naxçıvan SSR Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 16 iyun 1923-cü il tarixli qərarı ilə Azərbaycanın tərkibində Naxçıvan diyarına çevrildi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 9 fevral 1924-cü il tarixli qərarı ilə Naxçıvan Muxtar Diyarı muxtar respublika kimi yenidən təşkil olundu.

Azərbaycan SSR-in 1927-ci, 1937-ci və 1978-ci il konstitusiyalarında Naxçıvanın statusu ilə bağlı məsələlər öz əksini tapmışdı.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş ilk milli Konstitusiyasının VIII fəsli bütövlükdə Naxçıvan Muxtar Respublikasının statusuna həsr olunmuşdur. Burada muxtariyyətin hüquqi statusu, onun ali orqanlarının strukturu və səlahiyyətləri barədə müddəalar öz əksini tapmışdır. Konstitusiyanın 134-cü maddəsində qeyd olunur ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir və Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir.

Naxçıvanın muxtariyyəti Azərbaycan Respublikasının unitar dövlət quruluşu formasına xələl gətirmir. Birincisi, Naxçıvanın muxtariyyəti ərazi muxtariyyətidir və bu status Azərbaycanın əsas ərazisi ilə birbaşa quru əlaqəsinin olmamasından irəli gəlir. Ümummilli Liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi:***“Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi”.***

Bütün bunlar unitar dövlət və beynəlxalq hüququn subyekti kimi Azərbaycan Respublikasının suverenliyinə təminat verməklə Konstitusiyada öz əksini tapmışdır. Azərbaycan dövlətçiliyinin vahidliyi həm Azərbaycan Respublikasının Konstitusiyası, həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyası ilə təsbit olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyası normativ hüquqi aktların Naxçıvan Muxtar Respublikasında birbaşa hüquqi qüvvəyə malik olduğunu qeyd edir. Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının qəbul edilməsi tarixi zərurətə çevrilmişdi. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1995-ci il 23 dekabr 1995-ci il tarixli 16-1 nömrəli qərarı ilə Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiya yaradılmışdır. Komissiya yeni Konstitusiya layihəsini hazırlayaraq Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyaya təqdim etmişdir. Layihə burada 4 dəfə müzakirə edilmiş, Avropa Şurasının, Venesiya Komissiyasının və Avropa Komissiyasının ekspertizalarından keçmişdir. Layihənin son variantı Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın sədri, Prezident Heydər Əliyevin 12 aprel 1998-ci il tarixli 1-248 saylı məktubu ilə müzakirə edilmək üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə göndərilmişdir. Layihə Ali Məclisdə 28 aprel 1998-ci il tarixdə qəbul edilmiş, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 1998-ci il dekabrın 29-da təsdiq edilmiş və qüvvəyə minmişdir. Konstitusiya 6 fəsil, 50 maddə və keçid müddəalarından ibarətdir.

Azərbaycan Respublikasının Konstitusiyası ilə üzvi surətdə bağlı olan Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, haqq-ədalətə, qanuna əsaslanaraq Naxçıvan Muxtar Respublikasının əhalisinin layiqli həyat səviyyəsini təmin etmək, güzəranını yaxşılaşdırmaq, Naxçıvan Muxtar Respublikasında




Konstitusiya çərçivəsində demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat vermək, qanunun aliliyini qorumaq kimi ülvi niyyətlərlə qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əsasən, Naxçıvan Muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır və statusu Azərbaycan Respublikasının Konstitusiyası, 16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars beynəlxalq müqavilələri ilə müəyyən edilir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında demokratiyanın və hüquqi dövlətin ən mühüm atributlarından olan hakimiyyətlərin bölünməsi prinsipi təsbit edilmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi vətəndaşların suveren iradəsini ifadə edən ali təmsilçilik orqanıdır. Ali Məclis 45 deputatdan ibarətdir və onlar majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səs vermə yolu ilə seçilirlər. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Ali Məclisə seçkilər, Ali Məclis deputatlarının və İnsan hüquqları üzrə müvəkkilin statusu, Azərbaycan Respublikasının iqtisadi və vergi siyasətinə uyğun olaraq vergilər, muxtar respublika iqtisadiyyatının inkişafı istiqamətləri, sosial təminat, ətraf mühitin qorunması, turizm, səhiyyə, elm və mədəniyyət, habelə Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətinə aid edilən digər məsələlərə dair ümumi qaydalar müəyyən edir və qanunlar qəbul edir.

Əlavə olaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Ali Məclisin işinin təşkili və muxtar respublikanın büdcəsinin təsdiqi ilə bağlı qanunlar, Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial proqramlarının təsdiqi, Baş nazirin vəzifəyə təyin edilməsi və vəzifədən azad edilməsi, Nazirlər Kabinetinin tərkibinin təsdiqi, Nazirlər Kabinetinə etimad, ali vəzifəli şəxsinin təqdimatı ilə Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi, ali vəzifəli şəxsinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin təyin edilməsi, Konstitusiyada nəzərdə tutulmuş hallarda ali vəzifəli şəxsinin fərmanlarının təsdiqi, habelə Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətinə aid edilən digər məsələlərlə bağlı qərarlar qəbul edir.

Naxçıvanın, bütövlükdə Azərbaycanın siyasi tarixində əsas yeniliklərdən biri də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi institutunun yaradılması olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 dekabr tarixli 1917 nömrəli Fərmanı ilə sözügedən institut təsis edilmiş və onun Əsasnaməsi təsdiq olunmuşdur. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi rəhbərlik edir. Səlahiyyətli nümayəndə Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikasının Prezidentini təmsil edən vəzifəli şəxsdir və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi səlahiyyətləri həyata keçirir. Mərkəzi və yerli icra hakimiyyəti orqanları və digər dövlət qurumları Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyətlərini səlahiyyətli nümayəndə ilə əlaqələndirilmiş qaydada həyata keçirirlər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi institutunun yaradılması və səlahiyyətli nümayəndənin təyin olunması Azərbaycanın unitar dövlət idarəçiliyi ilə Naxçıvanın muxtar respublika statusunun harmoniyasını təmin edir. Beləliklə, Prezidentin səlahiyyətli nümayəndəsinin təyin olunması Naxçıvanda idarəetmə üsulunun səmərəliliyinin artırılmasına, bölgənin iqtisadiyyatının daha da inkişafına, islahatların uğurla həyata keçirilməsinə səbəb olmuş, muxtar respublikaya yerli və xarici investorların cəlb edilməsi prosesini sürətləndirmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında Naxçıvan muxtariyyətinin konstitusion statusunun əks olunması və Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında bu statusun təfərrüatlarının işlənib hazırlanması Azərbaycanın Konstitusiya quruluşuna möhkəm zəmin yaratmış, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının dövlət orqanları arasında ahəngdar münasibətlərin, bütövlükdə elmi cəhətdən əsaslandırılmış dövlət idarəetmə sisteminin yaradılmasına imkan vermişdir.

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” 2023-cü il 30 dekabr tarixli Sərəncamı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına ali səviyyədə göstərilən dövlət qayğısının bariz ifadəsi kimi böyük əhəmiyyət kəsb edir.***

***İSMAYIL QƏRİBLİ***
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri, Naxçıvan Dövlət*

## Ali təhsil ocağında “Tək səs, tək ürək” adlı konsert keçirilib

Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibəti ilə Azərbaycan Kipr Dostluq Cəmiyyəti və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Şimali Kipr Türk Cumhuriyyəti Müasir Musiqisi Dərnəyi xor kollektivinin “Tək səs, tək ürək” adlı konsert proqramı keçirilib.

Naxçıvan Dövlət Universitetində keçirilən konsert



proqramında universitetin rektoru Elbrus İsayev qonaqları salamlayıb. Diqqətə çatdırıb ki, bu konsert hər iki qardaş ölkənin birlik və bərabərliyinin ən böyük hadisəsi olan muxtar respublikanın yaranmasının 100 illik yubileyinə həsr olunan konsert ən maraqlı və yaddaqalan tədbirlərdən biri olacaq.

Sonra Azərbaycan Kipr Dostluq Cəmiyyətinin rəhbəri Orxan Həsənoğlu çıxış edərək bildirib ki, Ali Baş Komandan cənab Prezident İlham Əliyevin rəhbəriliyi, Azərbaycan xalqının iradəsi, qazilərimizin əməyi və



şəhidlərimizin şücaəti ilə böyük Zəfər qazanmışıq.

Türkiyə Cumhuriyyətinin Naxçıvandakı Baş konsulu Asip Kaya muxtariyyətin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan xalqını, naxçıvanlıları təbrik edib. Baş konsul diqqətə çatdırıb ki, hər iki ölkənin yaşadığı çətinliklər, apardığı mücadilələr Azərbaycan və Türkiyəni bir-birinə qırılmaz tellərlə bağlayıb.

Tədbir xor kollektivinin bir-birindən gözəl ifaları ilə, tamaşaçıların alqış sədaları altında keçib. Qeyd edək ki, xor kollektivinin repertuarında türk sənət musiqisi əsərləri ilə yanaşı Azərbaycan bəstəkar musiqilərinə də yer verilib.

Tədbirin yekununda hər iki tərəfdən xatirə olaraq hədiyyələr təqdim olunub və bütün zalın müşayiəti ilə musiqisi Emin Sabitoğluna, sözləri isə Bəxtiyar Vahabzadəyə aid olan “Azərbaycan” adlı mahnı oxunub

# Jurnalist tələbələr muxtariyyətin 100-cü ilindən yazır...

## Mənim könlüm bir ümmandır

Mənim könlüm bir ümmandır ki, ora Vətənimi, ailəmi, dünyamı sığdırmışam. Min illərin tarixini, dünənimi, bu günümü sığdırmışam. Ulu diyara gəlişimdən 3 il keçir. 3 ildir ki, buradayam. 100 illik muxtariyyəti olan bir diyarda, min illərin sərt qışından, selindən, istisindən üzüağ çıxan, qonşu xəyanətlərinə sinə gərən müqəddəs və qəhrəman bir yurddayam. Mən, Naxçıvandayam. Fəxr edirəm ki, belə bir yurdun qoynundayam, təhsilimi burada alıram, karyera yoluma buradan davam edirəm.



Burada formalaşan və heç vaxt itməyən dəyərləri, qocaya hörməti, uşağa nəzakəti daha çox görürəm. Nuh babamın əmanəti Naxçıvan, vüqarlı dağları, əsrarəngiz çölləri ilə ellərə səs salmış, tarixi, mədəniyyəti ilə alimləri heyran qoymuş qəhrəmanlar diyarım.

Naxçıvana gəldiyim gündən bəri burada olan inkişaf, tərəqqi, o cümlədən gənclərə göstərilən dəstək hər zaman diqqətimi cəlb edir. Hər qarışında qəhrəman, hər yerində mərhəmət var buranın. Ey qəhrəman Vətənin 5 minillik ərməğanı, muxtariyyətini almış qoca çinarsan sən, 100 ildir çiçəklənirsən, min illər də çiçəklənib, pöhrələnəcəksən. Sən bu qoca Şərqin qapısısan, hər kəsə qucaq açan məkansan.

Bu torpağın oğulları da, qızları da əyilməzdir. Bu torpaq, bu yurdun oğulları dünyada hər zaman birinciliklə tanınır, hər bölgəsi, hər tərəfi cənnətməkan, hər qarışı doğmadır. Ağsaqqalı, ağbirçəyi gözəl sözlü, nur üzlü, qonaqpərvər, vətənpərvərdir Naxçıvanın.

Bu diyar Nuh babamızın məskəni, qəlbimin hakimi, Azərbaycanın canı, ayrılmaz parçasıdır. Azərbaycanın tarixi torpağı, müqəddəs ocağı, cənnət məkanıdır.

Mənim könlüm təkcə mənim yox, bütün Azərbaycanın könlü, fəxri olan bu doğma diyar özündə möhtəşəm bir tarix yaşadır. Onun qanadları sanki Möminə xatın türbəsi, nəfəsi Batabat, danışan dili Hüseyn Caviddir.

Naxçıvanım! Gözəl diyarım, əzəmətli, vüqarlı torpağım! İstəyirəm biləsən ki, Cəlilabad rayonundan başlayan yolum səninlə davam edir. Bu yurda olan sevgim qəlbimin lap dərinliklərindədir, onu orada, mənəviyyatımda saxlayıram mən. Günügündən gözəlləşir, müasirləşir.

Öz doğma diyarını sevməyi ancaq qəlbində Vətən sevgisi olan, daim ürəyi Vətən eşqi ilə döyünənlər bilər. Bu uca torpağı insan ən saf yeri olan qəlbində saxlaya bilər, könlündə yaşada bilər.

100 ilin mübarək, Vətənimin oğlu, Nuh babamın yadigarı, sən hər zaman seviləcək və yaşayacaqsan.

*Əli Yarıyev*

## Şərqin qapısından – Naxçıvandan hər kəsə salamlar!

Gəlin Vətəni neçə əsrlər bundan əvvəl partlayış edərək sönən bir vulkana bənzədək. Bəzi dağları partlamış bir vulkanın qurumuş lavaları təsəvvür etsək, Naxçıvan da bu vulkanın həmin daşıdır. Kökü, tərkibi vulkana aid olan, özü isə vulkandan, yəni Vətəndən ayrı düşən, Şərqin qapısından – Naxçıvandan hər kəsə salamlar! Zamanın gərdişlərindən keçərək qədim daş dövründən muxtariyyət zamanına qədər neçə minillikləri arxada qoymuş bir diyar! Olduğumuz yerdən üfüqlərə baxsaq, hər tərəfdə dağları görmək mümkündür. Dağdan çox qala desək, daha düzgün olar. Əmir Teymurtək bir hökmdarın öhdəsindən bir neçə dəfə bu diyarın uca zirvələri gəlib.



Neçə ziyalı, neçə qəhrəman yetişdirən bu diyarda lazım gəldikdə qılıncda Atabəy Eldəniztək məğrur, qələmdə isə Ordubadi tək səlis olduq. Yeri gəldi kövrəldik Hüseyn Cavidtək romantik, İslam Səfərli, Məmməd Araztək nəğməkar olduq. Yeri gəldikdə at belində Kalbalı xan olaraq Vətəni qoruduq, yeri gəldikdə isə mətbuatda Mirzə Cəlil olduq. Baxmayın, bu şəxsiyyətlər fərqli dövrlərin adamlarıdır. Hər biri eyni diyardan səslənib tarixə. Bu diyarın insanlarına məkan fərq etməz. Bizi bəzən Şuşadakı bir dağa qalxarkən də, hər hansı bir ağacın kölgəsində əldə qələm, dizdə vərəq düşünərkən də görə bilərsiniz.

Adımızı tarixdə Naxçıvan xanlığı, Naxçıvan Muxtar Diyarı, Naxçıvan MSSR və başqa adlarla da görə bilərsiniz. Yüz il əvvələ qayıtsaq, görərik ki, tarix 1924-cü ilin keşməkeşli bir dövrünü göstərir. Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR adı altında muxtariyyət əldə etməyimizdən 100 il keçir. Ən yaxın tariximiz belə 100 ildirsə, bu Vətənin kökləri qoca bir çinartək çox dərinlərə enir deməkdir.

Naxçıvan lavalardan olan bir daşdır. Lakin o daş çoxdandır ki, artıq bir üzük üzərində yerləşən yeddi daş-qaşı, yəni yeddi regionunu öz üzərində birləşdirən yeddi daşdan ibarətdir. Naxçıvanın yaşlısından gəncinə hər bir kəs bu Vətənin bir daş-qaşıdır. Sizsiz nə Vətən, nə də vətəndaş olar. Məncə, bu yüzilliklər və bu təbriklər Naxçıvana azdır.

Ey qəhrəman diyarın, qəhrəman övladı, quru Vətəni təbrik etmək boşdur. Biz və siz bu Vətəni Vətən etdik. Mən Naxçıvanı yox, Naxçıvanı Naxçıvan edən sizi təbrik edirəm!

*Rafiq Təhməzov*

## Qəlbimin sevgili yarı Naxçıvan!



Nəqşicahan... Bu adla qəlblərdə taxt quran doğma yurdum, Naxçıvan! Gündən-günə abadlaşan, gözoxşayan əziz diyar! Mehriban, səmimi insanları, barlı-bərəkətli torpağı, bol bəhrəli bağları, qədim tarixi keçmişi, görkəmli şəxsiyyətləri ilə seçilən Azərbaycanın gözoxşayan incisi! Muxtariyyətinin 100 yaşı mübarək! Gün o gün olsun ki, min əsrlik yubileylərin yenə də təmtəraqla qeyd olunsun!

Çünki sən bu 100 ildə çox sınaqlardan üzüağ, alnıaçıq çıxmısan. Başından çox qara buludlar keçib, amma yenilməmisən, büdrəməmisən, əzmini itirməmisən. Ulu qüdrətin heç vaxt sarsılmasın. Hər zaman olduğu kimi bundan sonra da səsin zirvələrdən gəlsin! Qalib ölkənin zəfər sevincinə 100 illiyinin şərik olması biz gənclər üçün böyük qürurdur. Dörd bir yanda ən şərəfli işlərdə adıçəkilən saysız-hesabsız övlad yetirmisən və yetirirsən! 44 günlük Vətən müharibəsində də öz mərd igidlərin sənə başucalığı gətirib! Adın, sanın bundan sonrakı illərdə, əsrlərdə də şərəflə anılsın, əziz diyar, Naxçıvan!

*Nəzrin İsmayılova*

## 100 ilin baharı, 4 ilimin hər anı...



Bəşəriyyətin beşiyi, mədəniyyətin incisi, Naxçıvan!
Muxtariyyətin mübarək, 100 ilin səltənəti!
100 illiyin mübarək, igidlər əsəri!
Səni sevirəm, 100 ilin incisi!
Səni sevirəm, qocalmaz diyar!
Səni sevirəm, Naxçıvan!
Səni vəsf edənlərin dura-dura mən necə alım əlimə qələmi?

Mən susum, Cəlilin yazsın, Hüseynin danışsın, tabloma çəkməyim, Bəhruzun çəksin, fikrimdə qurub-yaratmayım səni, Əcəmin qursun-yaratsın, mahnı bəstələməyim sənə, Arazın bəstələsin, gəlməyim dərsinə, qoy Sidqin gəlsin... vəsf etməyim səni, Səfərlin etsin... qələmini mən yox, Ordubadin tutsun...

Qoy 100 ilin muxariyyətini yetişdirdiyin ölməz sənətkarlar təbrik etsin. Mən isə, sadəcə, seyr edim... Mən seyr edim, onlar isə səni yenidən yaratsın!

Necədir? Bəyəndin? 100 ilini sözlə, az da olsa, yaratmağa çalışdım. Dəryadan bir damla kimi... İndi gəlsin, muxtariyyətin ölməz sənətkarı, dahin sənin, hə, sənin bizə bəxş etdiyin ölməz şəxsiyyətin! Hə, o dahin ki, dünyaya səs salan, tarixə iz salan Heydərin imza çəksin! Onun qələmindən bir də baxaq sənə... Doyunca...

100 ilin mübarək, bütöv Vətənim!
Danış, Naxçıvan, nəfəsini hiss edim, ahəstə-ahəstə...
Pıçıldayım qulağına, yavaşca, bəstə...
Baxım o məğrur duruşuna, təəccüblə, məstə...
Muxtariyyətin, minilliklərə söykənən tarixin mübarək!

Roman yazım muxtariyyətindən, igid oğullarından, mərd qızlarından, yenilməz Sədərəyindən, Şahbuzun təbiətindən, Babəkin duruşundan, Şərurun yallısından, Ordubadın Sərşəhərindən, Kəngərlinin irsindən, Culfanın Əlincəsindən...

Qələm alıb yazım səndən səhifə-səhifə, kitab-kitab...
Ey 100 illin bənzərsizi, mən səndən yazsam...
Axan Arazında sular dayanar,
Mən səndən yazsam.
Batabatın qışda yay olar,
Mən səndən yazsam.
Düşüncəm dərya olar,
Mən səndən yazsam...

Doymadım yazmaqdan, səni vəsf etməyə çalışdım, amma... əbədiyyətdən boylanan Məmməd Arazın qədər yox!..

Mən burdan baxıram bütün aləmə,
Bu yerin qışı da yazımdır mənim.
Axan çaylarına lal sudur deмə,
Onlar min nəğməli sazımdır mənim.
Səni bütün ruhumla təbrik edirəm, 100 ilin baharı... 4 illimin hər anı...

*Şəfa Yazar*

## Muxtariyyətinin 100 yaşı mübarək, qocaman diyar!



Muxtariyyətinin 100 yaşı mübarək, qocaman diyar! Tarixi minilliklərə şahidlik edən qədim diyar – Naxçıvan! Bu gün sənin torpağının hər qarışında duyulan rahatlıq, firavanlıq insanların mənəvi dünyasına sirayət edir! Qələm sahibləri sənə olan heyranlıqlarını gizlədə bilmir, sənin şəninə şeirlər yazır, büsatına nəğmələr qoşurlar.

Böyük şəxsiyyətlər yurdu – Naxçıvan! Sən Azərbaycana böyük mütəfəkkirlər, elm, incəsənət, mədəniyyət xadimləri, siyasi xadimlər, böyük sərkərdələr bəxş etmisən! İsmayıl xan, Kalbalı xan, Hüseyn xan, Cəmşid Naxçıvanskilər kimi hərbi xadimlər yetirmisən. Mirzə Cəlil, Hüseyn Cavid, Bəhruz Kəngərli, Məmməd Səid Ordubadi, Məmməd Araz kimi unudulmaz simalarla tanınmısan!

Azərbaycanın xilaskarı, böyük dövlət xadimi, Ümummilli liderimizin əziz Vətəni olmusan! Bu gün sənin qoynunda böyüyüb boya-başa çatan, yaşayıb-yaradan şəxsiyyətlərinin ruhu şaddır! Çünki sən 100 ilini başucalığı ilə başa vurursan! Hələ neçə-neçə yüzilliklər, minilliklər qürurla çəkiləcək adın! 100 yaşlı əziz diyarım! Muxtariyyətinin yubileyi mübarək!

*Çinarə Həsənova*

## Yubileyin mübarək, əzəmətli yurdum!



Biz sənin hər qarışına heyran gənclərik, əziz Naxçıvan! Qəhrəman igidlərinlə, zəngin mədəniyyətinlə, qədim keçmişinlə, görkəmli şəxsiyyətlərinlə öyünmüşük, fəxr etmişik hər zaman... Üç fərqli mədəniyyəti özündə birləşdirən, lal Arazı ağuşuna alıb ona layla deyən, əziz Vətən! Atabəyin qüdrəti, uca dağlarının əzəməti qədər, qüdrətli və əzəmətlisən! Qarlı, soyuq dağlarının ardında isti nəfəsli, cana yaxın insanların səni hər kəsə doğma edir! Əsrlərdən bəri bütün çətinliklərə sinə gərən, əzəmətli Naxçıvan! Bu il sənin muxtariyyətinin 100 illik yubileyidir. Nəinki 100 il, sən hələ neçə-neçə əsrlər, qərinələr boyu könüllərdə taxt quracaq, gündən-günə daha da gözəlləşib, dünyaya səs salacaqsan!

**Dilarə Nəcəfli**

## Əzəmətli diyarım- Naxçıvan!



Hər qarışında sevinc gətirən, zəngin və qüdrətli tarixə malik olan, ana vətən sən bu il 100 illik yubileyini qeyd edirsən. Tarixən böyük sınaqlardan uğurla çıxan, şanlı tariximizi qəhrəmanlıqla yazan, Naxçıvan! Biz Naxçıvanımızın yüzillik yubileyini qeyd edərkən qədim tarixə malik zəngin mədəniyyətini, igid oğullarının mərdliyi, qorxmazlığı, zəhmətsevər insanlarının əməyinin nəticəsi olan bitməz-tükənməz naliyyətlərini qeyd edirik! Arzum budur ki, Naxçıvanımız sonrakı yüz illərdə də uğurları ilə dillərə dastan olsun. Şanlı bayrağımız bu yurd yerində də hər zaman zirvələrdə dalğalansın! Hər kəs əzəmətinə baxıb heyran qalsın! Doğma diyarım, daim əzəmətli olmağın diləyi ilə, 100 illik yubileyn mübarək!

**Duyqu İbrahimli**

## Nuhun yurdu, qədim diyar, Naxçıvan!



Azərbaycanın qədim diyarı, mərd və qoçaq insanların məskəni, Naxçıvan! Sən bu günə qədər çox sınaqlardan keçmisən, keşməkeşli günlər görmüsən… Amma öz tarixi irsini, adət-ənənələrini qoruyub saxlamısan! Cənab Prezidentin imzaladığı Sərəncama əsasən bu il muxtariyyətinin 100 yaşını qeyd edirsən. Müstəqilliyin bəhrələrindən güc alaraq, ümummilli liderin ideyalarını sədaqətlə yaşadaraq sabaha inamlı addımlarla irəliləyirsən! Qədim Nuh yurdu! Əziz muxtar respublika! Sənə 100-dən sonra neçə-neçə yüzilliklər, minilliklər diləyirəm! Bütün yubileylərini böyük uğur və nailiyyətlərlə qeyd edək, qədim diyar!

**Sevda Nəsir**

# Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələri genişləndirilir

## Naxçıvan Dövlət Universiteti ilə Con Fon Neyman Universiteti arasında birgə əməkdaşlığa dair memorandum imzalanıb

Naxçıvan Dövlət Universiteti ilə Macarıstanın Con Fon Neyman Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.

Bu münasibətlə ali təhsil müəssisəsində onlayn görüş keçirilib. Azərbaycanın Macarıstandakı səfiri Tahir Tağızadənin və səfirliyinin birinci katibi Seymur Abdullayevin də qatıldığı görüşdə səfir hər iki universitet arasında yaradılan qarşılıqlı əlaqələri yüksək qiymətləndirib. Qurulan bu əməkdaşlığın təhsil və elm sahəsində iki tərəfin təcrübə və bacarıqlarını birləşdirərək bölgələrarası əlaqələrin gücləndirilməsinə böyük töhfələr verəcəyini vurğulayıb.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev görüş iştirakçılarını salamlayaraq, Azərbaycan Respublikasının Macarıstandakı Səfirliyinə və Con Fon Neyman Universitetinin rəhbərliyinə bir neçə ay öncə Macarıstan səfərində göstərilən dəstəyə görə təşəkkürünü bildirib. Con Fon Neyman Universitetinə səfər zamanı razılığa gəlinən mövzuların memorandumda öz əksini tapdığını deyən rektor iki ali təhsil müəssisəsi arasında qurulan qarşılıqlı əməkdaşlıq nəticəsində Macarıstanın digər universitetləri ilə də əlaqələrin geniş vüsət alacağını bildirib.

Keçirilən görüşdə Con Fon Neyman Universitetinin rektoru Tamas Fülöp iki universitet arasında ortaq tədqiqatlar, ERASMUS+ proqramı çərçivəsində birgə layihələrin hazırlanması istiqamətində qurulan əməkdaşlığın məhsuldar olacağına əminliyini ifadə edib. Rektor yaxın müddətdə rəhbərlik etdiyi ali təhsil müəssisəsinin nümayəndələrinin Naxçıvan Dövlət Universitetinə səfərinin nəzərdə tutulduğunu və qarşılıqlı görüşlərin əməkdaşlığa daha böyük töhfələr verəcəyini vurğulayıb.



Sonra universitetlər arasında əməkdaşlıq memorandumu imzalanıb.

Müqavilədə akademik və təhsil sahəsində, beynəlxalq mobillik proqramları üzrə əməkdaşlıq, müəllim-tələbə mübadiləsi, akademik məlumat və materialların mübadiləsi, birgə tədqiqatların aparılması və.s kimi maddələr öz əksini tapıb. Eyni zamanda Kompüter mühəndisliyi, tədrisi ingilis dilində olan ixtisaslar üzrə ikili diplom layihələri, İqtisadiyyat və biznesin təşkili sahəsində tələbə-müəllim mübadiləsi, Avrasiya Bilik Mərkəzi ilə birlikdə ortaq tədqiqatlar aparmaq qurulan əməkdaşlığın əsasını təşkil edib.

Azərbaycanın Macarıstandakı səfiri Tahir Tağızadə bu münasibətlə hər iki təhsil müəssisəsini təbrik edərək, qarşılıqlı əməkdaşlıq sahəsində onlara uğurlar arzulayıb.

*Məmmədbağır Dünyamalıyev*
*NDU-nun Media və ictimaiyyətlə əlaqələr bölməsi*

## Naxçıvan Dövlət Universiteti ilə Macarıstanın Metropolitan Universiteti arasında gələcək əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamına əsasən Naxçıvan Dövlət Universiteti ilə xarici ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi, birgə proqramların təşkili məqsədilə keçirilən görüşdə biznes, marketinq, incəsənət, media, kommunikasiya və turizm sahələri üzrə ilkin müzakirələr aparılıb.



Görüşdə müxtəlif ixtisaslar üzrə mobillik proqramları, elmi-tədqiqat istiqamətləri barədə razılığa gəlinib.

## Universitet Elmi Kitabxanasında Türkiyə təcrübəsi tətbiq olunacaq

Naxçıvan Dövlət Universiteti ilə Türkiyənin Qazi Universiteti arasında imzalanmış müqaviləyə əsasən NDU əməkdaşları universitet Elmi Kitabxanasının təkmilləşdirilməsi məqsədilə Qazi Universitetinə səfər ediblər.



İnformasiya Texnologiyaları şöbəsinin müdiri Hüseyn Əsgərli, Elmi kitabxananın direktoru Xumar Məmmədova və kitabişləmə üzrə mütəxəssis Maral Babayeva səfər zamanı Qazi Universitetinin kitabxana təcrübəsi ilə tanış olub, yeni texnologiyalar üzərində qurulmuş kitabxana modelinin iş prinsipini öyrəniblər. Həmçinin səfər zamanı Ankara şəhərində yerləşən müxtəlif kitab satış mərkəzləri və kitabxana elektronlaşdırma sahəsində mütəxəssislərlə görüşlər keçirilib.

## Naxçıvan Dövlət Universiteti və Türkiyənin Ərzurum Texniki Universiteti arasında əməkdaşlıq protokolu imzalanıb

Naxçıvan Dövlət Universiteti ilə Ərzurum Texniki Universiteti arasında onlayn görüş keçirilib. Görüşdə Ərzurum Texniki Universitetinin rektoru Bülent Çakmak hər kəsi salamlayıb, ölkələrimiz arasında qardaşlıq münasibətlərinə toxunub, iki qardaş ölkə arasında bütün sahələrdə əlaqələrin yüksək səviyyədə olduğunu diqqətə çatdırıb. Universitetlərarası əlaqələrə toxunan Bülent Çakmak Naxçıvan Dövlət Universiteti ilə qarşılıqlı və faydalı əməkdaşlığın genişləndirilməsi istiqamətində layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışı zamanı ali təhsil ocağının kadr potensialı, professor-müəllim heyətinin malik olduğu elmi baza, maddi-texniki imkanlar, beynəlxalq əlaqələri, tərəfdaş olduğu xarici ölkə universitetləri haqda məlumat verib.

Rektor rəhbərlik etdiyi ali təhsil ocağının beynəlxalq əlaqələrində Türkiyə Universitetlərinin xüsusi payı olduğunu diqqətə çatdırıb. Qardaş ölkənin təcrübəsini öyrənmək baxımından birgə əməkdaşlığın xüsusi əhəmiyyətə malik olduğu bildirilib. Elbrus İsayev Türkiyə universitetləri ilə texniki sahədə gələcək əməkdaşlıq məsələlərinin vacib məqamlarına toxunub.

Qeyd olunub ki, Naxçıvan Dövlət Universiteti ilə informasiya texnologiyaları üzrə dünya nəhəngi IBM şirkəti arasında əməkdaşlıq əlaqələri qurulub. IBM şirkəti ilə imzalanan memoranduma əsasən ali təhsil ocağında Proqramlaşdırma Mühəndisliyi İnstitutu yaradılacaq.

Görüş zamanı rektor universitetdə yaradılacaq Texnopark üçün qabaqcıl dünya təcrübəsinin öyrənildiyini və bu baxımdan Ərzurum Texniki Universitetinin bu sahədə



imkanlarınının öyrənilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə universitetlərarası sosial və elmi əməkdaşlıq, birgə layihələrin icrası istiqamətində işlər müzakirə edilib. Sonra hər iki universitet arasında birgə əməkdaşlığa dair protokol imzalanıb. İmzalanmış protokola görə tərəflərin qarşı-ya qoyduqları öhdəliklər müzakirə edilib, universitetlərarası əməkdaşlıq sahələri haqqında fikir mübadiləsi aparılıb. Protokolda elmi rəqabətliliyin təmin ediməsi, tələbə, müəllim mübadiləsi, Ərzurum Texniki




Universiteti Yüksək Texnoloji Proqram və Araşdırma Mərkəzi, Texnoloji Transfer Ofisi ilə birgə tədqiqatlar, "Ərzurum Texniki Universiteti Mucit Park" vasitəsilə "Bilim insanı yetişdirmə Proqramı" çərçivəsində Naxçıvan Dövlət Universitetinin nəzdində olan Beynəlxalq məktəb, kollec və universitet tələbələrinə innovativ düşünmə, proqramlaşdırma və robotika sahəsində təlimlərin təşkili, elmi tədqiqat sahələrində birgə araşdırmalar, tədqiqatlar aparmaq əsas fəaliyyət istiqamətləri kimi müəyyənləşdirilib. Hər iki universitetin rektorları qarşılıqlı əlaqələrə toxunub, birgə əməkdaşlığın perspektivləri müzakirə edilib.

## Qardaş Türkiyə universitetləri ilə əməkdaşlığımıza Mardin Artuklu Universiteti də qoşulub

Naxçıvan Dövlət Universiteti ilə Mardin Artuklu Universiteti arasında onlayn görüş keçirilib. Görüşdə Mardin Artuklu Universitetinin rektoru İbrahim Özcoşar hər kəsi salamlayıb, rəhbərlik etdi-



yi ali təhsil ocağı haqqında məlumat verib. Qeyd olunub ki, Türkiyənin Mardin Artuklu Universiteti 2007-ci ildə əsası qoyulub, qısa zamanda xüsusi inkişaf yolu keçib. Hazırda universitet tibb, turizm və kənd təsərrüfatı sahələrində ölkə üzrə öndə olan ali təhsil ocaqlarındandır.

Universitetlərarası əlaqələrə toxunan İbrahim Özcoşar Naxçıvan Dövlət Universiteti ilə qarşılıqlı və faydalı əməkdaşlığın qurulması istiqamətində layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışı zamanı ali təhsil ocağının kadr potensialı, professor-müəllim heyətinin malik olduğu elmi baza, maddi-texniki imkanlar, beynəlxalq əlaqələri, tərəfdaş olduğu xarici ölkə universitetləri haqda məlumat verib.

Rektor ali təhsil ocağında qurulan Texnopark və onun fəaliyyət sahələri barədə danışıb,



beynəlxalq əməkdaşlıq məsələləri qonaqların diqqətinə çatdırılıb. Rektor universitetdə Azərbaycan və ingilis dilində tədrisi həyata keçirilən ixtisaslar haqqında məlumat verib.

Qeyd olunub ki, Naxçıvan Dövlət Universitetində 12 fakültədə ümumilikdə 10000-ə yaxın, o cümlədən dünyanın müxtəlif ölkələrindən 2500-ə yaxın xarici tələbə təhsil almaqdadır.

Elbrus İsayev Türkiyə universitetləri ilə gələcək əməkdaşlıq məsələlərinin vacib məqamlarına toxunub.

Görüşdə universitetlərarası sosial və elmi əməkdaşlıq, birgə layihələrin icrası istiqamətində işlər müzakirə edilib. Sonra hər iki universitet arasında birgə əməkdaşlığa dair protokol imzalanıb. Protokolda elmi rəqabətliliyin təmin edilməsi, tələbə-müəllim mübadiləsi, tədris-metodiki vəsaitlərin hazırlanması, müxtəlif aktual mövzular üzrə birgə elmi-tədqiqatların aparılması, innovativ layihələrin işlənib hazırlanması, müxtəlif aktual mövzular üzrə birgə konfrans, seminar, dəyirmi masa və digər elmi tədbirlərin keçirilməsi məsələləri öz əksini tapıb.

## Naxçıvan Dövlət Universiteti "Azərbaycan ali təhsil müəssisələrində sahibkarlıq ekosisteminə dair aparılmış tədqiqatın hesabat konfransı"nda təmsil olunub

NDU-nun rektor müşaviri Rəcəb Cəfərli 22-24 yanvar 2024-cü il tarixlərində Bakı Biznes Universitetində Mingə-



çevir Dövlət Universitetinin koordinatorluğu ilə həyata keçirilən "Azərbaycan ali təhsil müəssisələrində sahibkarlıq ekosisteminin gücləndirilməsi" Erasmus+ layihəsi çərçivəsində "Azərbaycan ali təhsil müəssisələrində sahibkarlıq ekosisteminə dair aparılmış tədqiqatın hesabat konfransı"nda iştirak edib. Konfransa Azərbaycanın 20-dən çox ali təhsil müəssisəsi, həmçinin layihə konsorsiumunun üzvləri olan İsveç, İspaniya, Portuqaliya, Estoniya və Polşanın nüfuzlu universitetlərinin nümayəndə heyəti qatılıb.

Konfransın ikinci günündə isə Avropanın tərəfdaş universitetlərindən dəvət olunan qonaqlar "Sahibkarlığın ali təhsil strategiyasına inteqrasiyası", "Postsovet dövründə: Polşa və Estoniyada ali təhsildə sahibkarlıq", "Sahibkarlıq kurikulumunun inkişafı: Avropanın ən yaxşı təcrübələri", "İnnovasiyaların kommersiyalaş-



dırılması: sahibkarlıq fəaliyyətlərində universitetlərin üçüncü missiyası" mövzularında təqdimatlar edərək panel müzakirələrini həyata keçiriblər.

*Pərviz Hacılı*

# “Türk dünyasına açılan Şərq qapısı : NAXÇIVAN 100” adlı konfrans keçirilib

Konfransdan öncə qonaqlar Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, ulu öndərin heykəlinin önünə gül dəstələri qoyub hörmət və ehtiramlarını ifadə ediblər. Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı qonaqlara görkəmli dövlət xadiminin şərəfli ömür yolunu əks etdirən fotoşəkillər, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, xatirə əşyaları və digər dəyərli eksponatlar barədə ətraflı məlumat verilib.

Konfransda çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ölkə



başçısı cənab İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” 30 dekabr 2023-cü il tarixli Sərəncamını muxtar respublika tarixində əlamətdar hadisə kimi qiymətləndirib. Rektor sivilizasiyanın beşiyi sayılan Naxçıvanın ölkəmizin tarixində, eləcə də ictimai-siyasi, elmi-mədəni həyatında rolunu xüsusilə qeyd edib. Elbrus İsayev tarixin ən çətin sınaqları ilə üzbəüz



duran Naxçıvanın yüksəlişində və tərəqqiyə qovuşmasında ulu öndərin müstəsna xidmətlərindən danışıb. 44 günlük haqq savaşında, Tarixi Qələbənin qazanılmasında Naxçıvanın qəhrəman övladlarının böyük şücaət və qəhrəmanlığı diqqətə çatdırılıb.

TAİB-in sədri, YAP Veteranlar Şurasının üzvü, akademik Sudeyif İmamverdiyev qeyd edib ki, xalqın qüdrəti onun bütün məqamlarda özünü təsdiq edən bir liderinin olması ilə ölçülür. Akademik Ümummilli lider Heydər Əliyevin Naxçıvanda hakimiyyət dövrünə nəzər salaraq, muxtariyyət dövrünün inkişafını tarixi faktlarla diqqətə çatdırıb.

Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Musa Qasımlı “Azərbaycanın ərazi bütövlüyünün qorunmasında və dövlət müstəqilliyinin bərpasında Naxçıvanın yeri: tarixi hadisələrin müqayisəli təhlili” mövzunda çıxış edib.

“3 oktyabr 2009-cu il tarixinin Türk dünyası üçün önəmi: Naxçıvan Bəyannaməsi” mövzusunda çıxış edən



AMEA-nın “Türk xalqlarının etnologiyası” şöbəsinin müdiri, tarix elmləri doktoru, türkoloq Güllü Yoloğlu türk dünyası üçün əlamətdar tarixə malik bir günün təməlinin məhz Naxçıvanda qoyulması barədə fikirlərinə aydınlıq gətirib. Türkoloq Güllü Yoloğlu gətirdiyi kitabları universitetin rektoru Elbrus İsayevə təqdim edib.

“Naxçıvanın statusu ilə bağlı beynəlxalq müqavilələrin tarixi əhəmiyyəti” mövzusunda NDU-nun Beynəlxalq münasibətlər kafedrasının dosenti, tarix elmləri doktoru Emin Şıxəliyev, universitetin Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanovun “Naxçıvanın müasir beynəlxalq arenada yeri və rolu” mövzusunda çıxışları dinlənilib.

XX yüzilliyin əvvəllərində Azərbaycan-Türkiyə münasibətlərində və böyük dövlətlərin siyasətində Naxçıvan Türk Ağsaqqallar Birliyi-TAİB-in 2023-cü il Heydər Əliyev ilindəki fəaliyyətini əks etdirən video xülasə nümayiş olunub.

Tədbir universitetin İncəsənət fakültəsinin hazırladığı konsert proqramı ilə davam edib.

Sonra akademik Sudeyif İmamverdiyev Tibb fakültəsində, professor Musa Qasımlı Beynəlxalq münasibətlər və Hüquq fakültəsində, iqtisadçı ekspert Şahin Həsənov İqtisadiyyat və idarəetmə fakültəsində, Tarix elmləri doktoru Güllü Yoloğlu və Əməkdar mədəniyyət işçisi Telli Pənahqızı Magistratura və doktorantura mərkəzində müəllim və tələbələrlə görüş keçiriblər.

*Səadət Əliyeva-Media və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri*

# Ali təhsil ocağında yaz semestrinin ilk dərslərini şəhid ailələri keçib

Gənclərə milli mənlik şüurunun aşılanması, onların vətənpərvər ruhda tərbiyə olunması məqsədilə Naxçıvan Dövlət



Universitetində yaz semestrinin ilk dərslərində tələbələr şəhid ailələrini dinləyiblər.

Ali təhsil müəssisəsində Şəhid ailələri və qazilərlə mütəmadi olaraq baş tutan görüşlərin, “Naxçıvan Şəhid Ailələri”, “Naxçıvan Qaziləri” İctimai Birlikləri ilə birgə təşkil edilən tədbirlərin davamı olaraq həyata keçirilən bugünkü layihə vətənimizin bütövlüyü uğurda canlarını fəda edən şəhidlərimizin xatirəsini və bu yolda sağlamlığını itirən qazilərimizin fədakarlıqlarını əbədiləşdirmək məqsədi daşıyır.

Bu gün səhər saatlarından başlayaraq universitetin bütün fakültələrində ilk dərslərə daxil olan şəhid ana-ataları tələbələrə torpaqlarımızın suverenliyi uğrunda canlarından keçən övladlarının həyatından, döyüş yolundan danışıblar. Onlar gənclərimizi milli və vətənpərvər ruhda yetişməyə, daim ölkəmizin suverenliyini, ərazi bütövlüyünü qorumağa səsləyiblər.

Şəhid ailələri, eyni zamada, Naxçıvan




Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən kolleclərdə də dərs prosesində iştirak ediblər.

*Məmmədbağır Dünyamalıyev*

# NDU IELTS Mərkəzində növbəti imtahan uğurla həyata keçirilib

Naxçıvan Dövlət Universiteti Xarici Dillər fakültəsində yaradılan IELTS qey-



diyyat və imtahan mərkəzində növbəti imtahan keçirilib. Artıq altıncı dəfədir keçirilən imtahanda 39 nəfər iştirak edib. İki gün davam edən imtahanda namizədlər IELTS danışıq imtahanında iştirak edib, sonra onların dinləmə, oxu və yazı bacarıqları qiymətləndirilib. İmtahanda oxuma və dinləmə prosesində sualların tərtib edilməsini, yazı və danışıq mərhələsində sualların hazırlanmasını Britaniya Şurası həyata keçirib. İmtahanda universitetin xarici dillər fakültəsinin müəllimləri, ingilisdilli ixtisaslarda dərs deyən müəllimlərlə bərabər ali təhsil ocağının Beynəlxalq məktəbində dərs demək üçün müraciət edən namizədlər də qatılıb.

Mərkəz artıq universitetdə ingilis dilində ixtisasların sayının artmasına və qeyri-ixtisaslarda çalışan əməkdaşların ingilis dili bacarıqlarının qiymətləndirilməsinə müsbət təsir göstərib. Onu da



qeyd etmək yerinə düşər ki, mərkəz beynəlxalq əməkdaşlıqda uğurlar qazanan ali təhsil ocağının gələcək perspektivlərini, ikili diplom layihələrində iştirakını təmin edir. Bu imtahanlardan uğurla keçən müəllim və tələbələr ikili diplom proqramlarına qatılır, öz təhsillərini xarici ölkə universitetlərində davam etdirirlər.

# 2023-2024-cü tədris ilinin ikinci yarısında keçiriləcək pedaqoji internaturaların başlanğıc konfransı baş tutub

Konfransda ali təhsil ocağının professor-müəllim heyəti, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşları, pedaqoji təcrübənin keçiriləcəyi ümumtəhsil məktəbləri və məktəbəqədər təhsil müəssisələrinin direktorları, pedaqoji təcrübəyə gedəcək tələbələr iştirak ediblər.

Naxçıvan Dövlət Universitetin rektoru Elbrus İsayev müəllim kadrların hazırlığında pedaqoji təcrübənin əhəmiyyətindən danışıb.




Diqqətə çatdırılıb ki, həm pedaqoji, həm də istehsalat təcrübəsi eyni məqsədə tələbələrin yüksək səviyyəli mütəxəssislər kimi yetişmələrinə xidmət edir. Rektor bildirib ki, universitet həyatında istehsalat və pedaqoji təcrübə bir-birini tamamlayan iki mühüm bir hadisədir, gələcəkdə müəllim olmağa və dövlət qurumlarında işləyəcək gənclər üçün xüsusi bir hazırlıq mərhələsidir. Rektor pedaqoji təcrübənin muxtar respublikanın ali və orta təhsil müəssisələrinin sıx əməkdaşlığı, tələbələrin pedaqoji ustalıqlara yiyələnmələri baxımından əhəmiyyətini, təcrübi dərslər zamanı informasiya-kommunikasiya vasitələrindən istifadənin, elmi-kütləvi, mədəni tədbirlərin keçirilməsinin zəruriliyini qeyd edib. Pedaqoji təcrübə sabahın müəllim kadrlarının bu peşəyə layiqlik dərəcəsi və səviyyəsini üzə çıxaracaq bir fəaliyyət sahəsi, müəllim hazırlığı formalarından biridir. Rektor tələbələrə və təcrübə rəhbərlərinə bu dövrə məsuliyyətlə yanaşmağı, yüksək göstəricilərlə başa vurmağı arzulayıb.

Sonra konfransda Naxçıvan Muxtar Respublikasının Təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov çıxış edərək təcrübənin keçiriləcəyi ümumtəhsil məktəblərinin şəraiti və maddi-texniki bazası haqqında məlumat verib.

Qeyd olunub ki, tələbələrin pedaqoji mühitə uyğunlaşması, pedaqoji biliklərini inkişaf etdirmələri üçün pedaqoji



təcrübələr mühüm əhəmiyyətə malikdir.

Müəllimlərin işə qəbulu ilə bağlı yeni qaydalar haqqında məlumat verən nazir müavini qeyd edib ki, metodist müəllim, pedaqoji rəhbər və təcrübəçilərin məktəbə gəlişi, tədris müəssisələrində daha çox məsuliyyət və yaradıcılıq əhvali-ruhiyyəsi doğurur, ali və ümumtəhsil məktəbləri arasında yüksək keyfiyyət təminatı, ədalətli, şəffaf, obyektiv mühitin təmin olunması məqsədilə birgə fəaliyyət imkanı yaranır.

Natiq vurğulayıb ki, təcrübə müddətində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən tələbələrin yüksək səviyyədə praktik iş qabiliyyətinə yiyələnmələri diqqətdə saxlanılacaq.



Sonra 2022-2023-cü tədris ilində keçirilən təcrübələrə həsr olunan videoçarx nümayiş olunub.

Konfransa Təcrübə və məzunlarla iş bölməsinin müdiri Aynurə Seyidovanın “Pedaqoji internaturaların təşkili və keçirilməsi”, “Ümumi və nəzəri fizika” kafedrasının müdiri Billurə Hacıyevanın “Pedaqoji internaturada təcrübə rəhbərlərinin görəcəyi işlər”, “Pedaqogika və psixologiya” kafedrasının müdiri Taleh Xəlilovun “Pedaqogika və psixologiya üzrə təcrübə rəhbərlərinin görəcəyi işlər” mövzularında çıxışları dinlənilib.

# Tələbələr istehsalat təcrübəsinə göndərilib

Bu məqsədlə keçirilən konfransda ali təhsil müəssisəsinin professor müəllim heyəti, təcrübə rəhbərləri, təcrübəçi tələbələrlə yanaşı təcrübə bazalarının əməkdaşları da iştirak edib.



Universitetin rektoru Elbrus İsayev qeyd edib ki, də istehsalat təcrübəsi tələbələrin yüksək səviyyəli mütəxəssislər kimi yetişmələrinə xidmət edir. Rektor bildirib ki, universitet həyatında istehsalat və pedaqoji təcrübə bir-birini tamamlayan iki mühüm bir hadisədir, gələcəkdə müəllim olmağa və dövlət qurumlarında işləyəcək gənclər üçün xüsusi bir hazırlıq mərhələsidir.

Sonra Təcrübə və məzunlarla iş bölməsinin müdiri Aynurə Seyidovanın “İstehsalat təcrübəsinin təşkili və keçirilməsi”, Coğrafiya kafedrasının baş müəllimi Əli Qurbanovun “Təcrübə rəhbərlərinin görəcəyi işlər” mövzularında çıxışları dinlənilib.

Sonda 2022-2023-cü tədris ilində keçirilən təcrübələrə həsr olunan videoçarx nümayiş olunub.

*Pərviz Hacılı*

# Xocalıda bayrağımız əzəmətlə dalğalanır

XX əsrin sonunda ermənilər Xocalıda törətdikləri soyqırımı indiyədək bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir. Xocalı şəhəri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində strateji əhəmiyyətli ərazi kimi ermənilərin işğalçılıq planlarına mane olurdu. Çünki Xocalı Xankəndidən 12 km şimal-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında yerləşirdi. Şəhərin əhəmiyyətini artıran səbəblərdən biri də Dağlıq Qarabağın yeganə hava limanının məhz burada yerləşməsi idi. Buna görə Ermənistan silahlı qüvvələrinin əsas məqsədi Xocalıdan keçən Əsgəran-Xankəndi yoluna nəzarət etmək və Xocalıda yerləşən aeroportu ələ keçirmək idi.

Hələ faciədən 4 ay əvvəl, yəni 1991-ci il oktyabrın sonundan şəhərə gedən bütün avtomobil yolları bağlanmış və Xocalı faktiki olaraq mühasirəyə alınmışdı. Bununla yanaşı, yanvarın 2-dən Xocalıya verilən elektrik enerjisi də kəsilmişdi. Beləliklə, artıq Xocalının Azərbaycanın digər bölgələri ilə bütün əlaqələri yolları bağlanmışdı. Ancaq bir neçə ay sonra Xocalı ilə vertolyot əlaqəsi də kəsildi. Yəni, 1992-ci ilin yanvarın 28-də Ağdamdan Şuşaya uçan Mİ-8 vertolyotu şəhərə çatmamış, Xəlfəli kəndinin üzərində Xankəndi tərəfindən raketlə vuruldu, içərisində olan 3 nəfər heyət üzvü və 41 sərnişin həlak oldu. Bundan sonra isə Ermənistan ordusu bir-birinin ardınca yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdilər. 1991-ci ilin sonunda Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsi, o cümlədən Tuğ, İmarət-Qərvənd, Sırxavənd, Meşəli, Cəmilli, Umudlu, Kərkicahan və digər strateji əhəmiyyətə malik azərbaycanlılar yaşayan kəndlər ermənilər tərəfindən yandırıldı, dağıdıldı və talan edildi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistanın silahlı qüvvələri Xankəndində yerləşən keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın 10 tankı, 16 zirehli transporty-oru, 9 piyadaların döyüş maşını, 180 nəfər hərbi mütəxəssisi və xeyli canlı qüvvəsi ilə Xocalını mühasirəyə aldı. Ermənilər ən müasir silahlarla şəhərə hücum edərək Xocalı şəhərini yerlə yeksan etdilər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdılmış, yandırılmış və insanlar xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Onların içərisində başları kəsilən, gözləri çıxarılan, dərisi soyulan, diri-diri yandırılanlar çoxluq təşkil edirdi.

Bu soyqırımı nəticəsində, rəsmi rəqəmlərə görə, 613 nəfər öldürülmüşdür ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar idi.

Qüvvələr nisbəti qeyri-bərabər olan döyüşlərdən sonra Xocalıda olan özünümüdafiə qüvvələri son nəfərinə qədər vuruşaraq düşmənə çox ciddi müqavimət göstərdilər.

Xocalının müdafiəsi zamanı yeddi Azərbaycanın Milli Qəhrəmanı iştirak etmişdir. Həmin Milli qəhrəmanlarımız Əlif Hacıyev, Ələsgər Növruzov, İnqilab İsmayılov, Aqil Quliyev, Tofiq Hüseynov, Füzuli Rüstəmov, Şöhrət Həsənov idi. Ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Xocalı soyqırımına dövlət səviyyəsində münasibət bildirildi və ulu öndərin rəhbərliyi ilə bu faciəyə düzgün hüquqi-siyasi qiymət verildi, bu dəhşətli hadisənin səbəbkarları və iştirakçıları aydın şəkildə göstərildi. Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Xocalıda baş verənlər Milli Məclisdə müzakirə olundu. Ölkə Prezidentinin Sərəncamı ilə 26 fevral Xocalı Faciəsi Günü elan edildi. Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı ilə ilk dəfə faciənin dəqiq siyasi qiyməti verildi, günahkarlar göstərildi. Ümummilli lider Heydər Əliyev demişdir: ***"İnanıram ki, bu gün xalqımız müstəqil Azərbaycan dövlətində daha da mətinləşib və dövlətimizin müstəqilliyini qoruyub saxlamaq, işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda yenilməz mübarizə aparmaq əzmindədir. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan dövləti xalqımızın bu müqəddəs amallarının gerçəkləşməsi yolunda var qüvvəsini sərf edəcək, soydaşlarımıza qarşı törədilmiş qanlı cinayətlərin, o cümlədən Xocalı faciəsinin bütün günahkarlarının lazımınca cəzalandırılması üçün bütün tədbirləri görəcəkdir".***

Ermənistanın daim mülki əhalini hədəf seçən təxribatlarına və hərbi təcavüzünə cavab olaraq, 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı əzəli torpaqlarının işğaldan qurtarılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi və tarixi ədalətin bərpa edilməsi uğrunda Vətən müharibəsinə qalxdı... 44 gün sürən döyüşlər nəticəsində rəşadətli Azərbaycan Ordusu parlaq qələbə qazanaraq doğma




torpaqlarımızı işğaldan azad etdi. Xocalı şəhəri isə 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizləndi. Bu şəhərdə Azərbaycan Bayrağının dalğalanması Xocalı faciəsi qurbanlarının qanının yerdə qalmadığını bir daha nümayiş etdirmiş oldu. Oktyabrın 15-də dövlət başçımızın Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltması tarixi bir günə çevrildi.

Bu gün Xocalı şəhidlərinin ruhu şaddır. Ona görə ki, ölkəmizin hər bir qarışında əzəmətli üçrəngli bayrağımız dalğalanır.

***Rəsul Bağırov***
***"Ümumi tarix" kafedrasının müdiri***

## Naxçıvan Dövlət Universiteti tələbələri Xocalı həqiqətlərini dünyaya 7 dildə çatdırıb

Naxçıvan Dövlət Universitetində Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunan internet



aksiyası keçirilib. Universitetin rektoru Elbrus İsayev çıxış edərək qeyd edib ki, Xocalı soyqırımı qurbanlarının intiqamını rəşadətli Azərbaycan ordusu döyüş meydanında aldı və müzəffər ali baş komandan İlham Əliyev Xocalı şəhərində Azərbaycanın üçrəngli şanlı bayrağını dalğalandırdı. Rektor internet aksiyasını soyqırımının tələbə-gənclər tərəfindən elektron informasiya mübadiləsi, virtual əməkdaşlıq yolu ilə dünyaya çatdırılmasını yüksək qiymətləndirib.

Daha sora çıxış edən universitetin sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Arzu Abdullayev gənc-tələbələrə Xocalı soyqırımının tarixi haqqında ətraflı məlumat verərək keçirilən aksiyanın məqsəd və vəzifələri barədə danışıb.

Vurğulanıb ki, Bu gün Prezident İlham Əliyevin



uğurlu xarici siyasətinin nəticəsi olaraq Xocalı soyqırımına beynəlxalq hüquq normaları çərçivəsində qiymət verildiyi, dünyanın bir sıra ölkələrinin, beynəlxalq təşkilatların, habelə ABŞ-ın 20-dən artıq ştatının qanunverici orqanının Ermənistanı işğalçı dövlət kimi tanıdığı vurğulanıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşdırılan "Xocalıya ədalət" kampaniyasının bütün dünyanı əhatə etdiyi qeyd edilib.

Sonra İnternet aksiyasına başlayan tələbələr ingilis, fransız, alman, rus, ərəb, fars, koreya dilində 100-dən çox xarici xəbər agentliyi və 20-dən çox xarici ölkənin 100-ə yaxın elektron poçt ünvanına Xocalı haqqında poster və məlumatlar göndəriblər, Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına öz dəstək nümayiş etdiriblər.

***Əli Yarıyev Jurnalistika ixtisası üzrə***
***III kurs tələbəsi***

## NDU-nun Beynəlxalq Məktəbində Xocalı faciəsi qurbanlarının xatirəsi yad edilib



Tədbirdə Xocalı qurbanlarının və ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüşlərdə şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Xocalı faciəsinin yalnız xalqımıza qarşı deyil, ümumilikdə insanlıq əleyhinə, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayət olduğu qeyd olunub.

Vurğulanıb ki, Xocalı faciəsin Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcək dəhşətli cinayət, terror hadisəsidir. Diqqətə çatdırılıb ki, prezident İlham Əliyevin uzaqgörən siyasəti və Azərbaycan xalqının güclü iradəsi nəticəsində bu gün Xocalı soyqırımının dünya ictimaiyyətinə tanıdılması istiqamətində böyük addımlar atılıb. Belə ki, 44 günlük Vətən müharibəsində əldə olunan qələbə azərbaycanlılara qarşı törədilmiş terror aktlarına qarşı ən tutarlı cavab idi.

Eyni zamanda tədbirdə Xocalı faciəsini özündə əks etdirən filmə baxış olub

## Ali təhsil müəssisəsində "Soyqırım cinayəti: hüquq müstəvisində" adlı panel müzakirə keçirilib

Naxçıvan Dövlət Universitetində Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə "Soyqırım cinayəti: hüquq müstəvisində" adlı panel müzakirə keçirilib.

Hüquq fənləri kafedrasının müəllimi Əziz Qasımovun moderator olduğu panel müzakirədə Naxçıvan MR Prokurorluğunun şöbə rəisi Faiq Səfərov, Naxçıvan MR Ali Məhkəməsinin əməkdaşı Yunis Xəlilov, Naxçıvan MR Vəkillər Kollegiyasının üzvü Mircəlal Seyidov iştirak edib.

Çıxışlarda qyed olunub ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları tərəfindən Azərbaycanın Xocalı şəhərində dinc əhaliyə qarşı həyata keçirilən soyqırımı nəticəsində bir gecədə 106 qadın, 63 uşaq, 70 ahıl insan olmaqla 613 nəfər xüsusi qəddarlıqla qətlə yetirilib. Qeyd olunub ki, Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, 1994-cü ildən etibarən 26 fevral "Xocalı Soyqırımı Günü" kimi yad edilməsi qərara alınıb.

Vurğulanıb ki, 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Şanlı ordumuzun qazandığı tarixi qələbə nəticəsində 30 ilə yaxın davam edən erməni işğalına son qoyulsa da, ədalətin bərpası uğrunda mübarizə bitməyib. Xüsusilə informasiya məkanında erməni yalanlarının ifşa edilməsi, xalqımıza qarşı törədilən ağır beynəlxalq cinayətlər barədə dünya ictimaiyyətinin maarifləndirilməsi öz aktuallığını saxlayır.



Bu xüsusda, gənclərin üzərinə düşən minimum vəzifə "Xocalıya ədalət" Beynəlxalq Kampaniyasının təqdim etdiyi materiallardan istifadə etməklə, soyqırımı həqiqətlərini dünyaya çatdırmaqdır.



İştirakçılar müzakirədə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı birliklərinin Xocalıda törətdikləri bəşəri cinayətin soyqırımı aktı olduğunu təsdiq edən mühakimələrini bölüşüblər. İndiyədək beynəlxalq aləmdə Xocalı soyqırımının tanıdılması istiqamətində görülən işlər və qaşıda duran vəzifələr barədə müzakirələr aparılıb.

***Məmmədbağır Dünyamalıyev***

# Sağlam gələcəyin təminatı-xoşbəxt gənclik

Gənclər bu ölkənin ən qiymətli sərvəti, gücü və ümididir. Bir millətin yüksəlməsində ən mühüm faktor olmaqla yanaşı, cəmiyyətin özülüdür. Gənclərin inkişafı, təhsili və tərbiyəsi bilavasitə bütün cəmiyyətin hüzuru, sağlam gələcəyi baxımından böyük önəm kəsb edir. Beynəlxalq dəyərləri mənimsəmiş, tolerant, yüksək bacarıqlı, millətinə və dəyərlərinə sadiq, adət-ənənələrinə bağlı bir gəncliyə



sahib olan ölkənin gələcəyi əlbəttə, aydınlıqdır. Tarixi vərəqləsək görərik ki, ölkədə baş vermiş ictimai-siyasi proseslər gənc nəslin mənəvi-psixoloji sarsıntısına səbəb olmuşdur. Əbədi müstəqilliyin işığını gənclərdə görən Heydər Əliyevin səyləri ilə gənclərin formalaşması və inkişafında yeni mərhələnin əsası qoyuldu. Ölkəmizdə Gənclər gününün təsis edilməsi, bu sahədə qanunlar, sərəncamlar və dövlət proqramları öz nəticəsini verməyə, gənclik sağlam gələcəyə inamla addımlamağa başladı. Çox da uzun müddət keçməmiş, dövlət-gənclər siyasətinin bəhrəsi kimi, Azərbaycanın taleyinin tapşırıldığı gənclik ölkəni elm, texnologiya, incəsənət, musiqi, idman və bir sıra digər sahələr üzrə birinciliyə daşımağa nail olmuşdur. Xalqla bir bütün halına gəlmiş, bircə dəfə yaşadığımız bu ömrü Azərbaycan uğruna həsr etmiş dahi liderin bizə miras buraxdığı yüksək dəyərlərin mahiyyəti hamımıza məlumdur. Amma daxilən, bir gənc kimi heyifsilənirəm ki, elə böyük liderin, fədakar rəhbərin dövrünə şəxsən şahidlik edib, onu canlı görə bilməmişəm. Çünki hər birimiz çox yaxşı bilirik ki, ölkəni idarə etmək kimi ağır məsuliyyət daşıyan bir şəxs qayğıkeş ata, ailə başçısı kimi öz ailəsindən, xalqından diqqət və qayğısını əsirgəmir, xalqla iç-içə olub dərdlərinə, sevinclərinə şərik olurdu. O dövrə şahidlik edən kimdən soruşsan, hökmən onun haqqında şirin bir xatirə danışar. Fərqli zaman dilimləri, fərqli yerlər və görüşlərin fərqli səbəbləri.. Amma söhbətlərin bəxş etdiyi hissiyat dəyişməyir. Danışanların üzündə təbəssüm, həmsöhbət olmağın verdiyi qürur və belə bir şəxsiyyəti itirməyin verdiyi hüzün.. Bir dəfə kəndimizdəki yaşlı nənə deyirdi ki, "Vəzifədən və işdən asılı olmayaraq hər bir rəhbər öz tabeliyində olana məsuliyyət, çalışqanlıq və daha çox uğur arzulayır. Amma Heydər Əliyev bizim kəndin gənc üzümçü qızları ilə görüşmüş, söhbət etmişdi. O gənclərə öz qızı kimi yanaşaraq, qızlara işlərində müvəffəqiyyətlə yanaşı, qadın xoşbəxtliyi, səadət dolu ömür, gözəl ailə arzu etdi. Bir anlıq düşünürsən ki, bir prezidentlə deyil, öz doğma qohumunla, qardaşınla söhbətləşib, dərdləşirsən." Mənzərə budur: xalq ulu öndəri sevir, ulu öndər də xalqa könüldən bağlıdır.

İllər uzunu aparılan gənclər siyasəti çərçivəsində minlərlə gənclə görüşlər keçirilir, ulu öndər gənclərin problemlərinə, gələcək hədəflərinə işıq tutmağa davam Danılmaz faktdır ki, artıq gənclər sözün əsl mənasında Heydər Əliyevin arzuladığı situasiyadadır. Düşünən, araşdıran, öyrənən və öyrədən.. Öz haqqını bilən, cəmiyyətə faydalı və yüksək bacarıqlı gənclər layiq olduğu bütün mövqeləri əldə edir. Beynəlxalq yarışlarda, konfranslarda, olimpiyadalarda himnimizi səsləndirib, bayrağımızı qaldırırlar. Bu, bizim üçün böyük qürur mənbəyidir. Qeyd etmək yerinə düşərdi ki, ötən il Naxçıvan Dövlət Universitetinin bir qrup tələbəsi öz layihəsi ilə qardaş Türkiyədə keçirilən Dünyanın ən böyük robotik festivalında birinci yeri tutaraq bütün Azərbaycanın qürur mənbəyi olmuşdur. Əslində bu festivalda biz yalnız ümummilli liderin gənclərə yönəlmiş ümidlərinin doğrulmasına şahid olmadıq. Sosial şəbəkələrdə Cənab Prezidentimizin yayılan görüntüsü bir daha sübut etdi ki, o yalnız Heydər Əliyevin dövlətçilik siyasətini deyil, yüksək mənəvi keyfiyyətlərini də ən gözəl şəkildə öz xislətində daşıyır. Festivalda İlham Əliyevin 8-10 yaşlı balaca qıza öz yerini verməsi ulu öndərin uşaqlarla olan mehriban görüntülərini gözlər önünə gətirdi.

Məhz hər il 2 fevral – Azərbaycan Gəncləri Gününün təntənə ilə qeyd olunması da gənclərin fəaliyyətinə verilən önəm və dəyərin nişanəsidir. Biz gənclər də verilən dəyər və göstərilən diqqətin səmimiliyindən xoşbəxtlik duyuruq.

Yenə də sözlərimi dahi liderin biz gənclərə ünvanlanan sözləri ilə bitirmək istəyirəm: ***"Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq."*** Əminik ki, Azərbaycanımızın gələcəyi etibar olunan əllərdə sonsuz xoşbəxtlik, rifah və səadət içində var olacaq.

***Aysel YUSİFZADƏ***
***Jurnalistika ixtisası IV kurs tələbəsi***

# Ali təhsil ocağında
# 2 fevral – Gənclər Günü qeyd olunub

Ali təhsil müəssisəsində 2 fevral – Gənclər Günü münasibətilə universitetin tələbə və gənc əməkdaşları ilə çay masası ətrafında görüş keçirilib

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev 2 fevral gününün Gənclər Günü kimi elan olunmasının xalqımızın Ümummilli lideri Heydər Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdırıb.




"Məhz Ulu öndərin hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsası qoyuldu" - deyən rektor 1994-cü ildə dövlət gənclər siyasətini icra edən Gənclər və İdman Nazirliyinin yaradıldığını, 1996-cı il 2 fevral tarixində birbaşa olaraq Ulu öndər Heydər Əliyevin dəstəyi ilə gənclərin 1-ci forumunun keçirildiyini, 1997-ci ildə isə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbay-canda Gənclər Gününün təsis edildiyini bildirib.

Qeyd edilib ki, görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi kurs bu gün ölkə prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan verib.

"44 günlük Vətən müharibəsində vətənpərvər gənclərin Vətəni qorumaq üçün hər cür fədakarlıq və şücaət göstərmələri bunun bariz göstəricisidir" - deyə çıxışda qeyd edilib.

Bu siyasət çərçivəsində uğurla icra olunan bir sıra tədbirləri, tələbələrin və universitetin tələbə təşkilatlarının uğurlarını sadalayan Elbrus İsayev ötən gün Naxçıvan Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının ən ali mükafatı olan "Ağ çinar" mükafatına layiq görülməsini Gənclər gününə ən böyük töhfələrindən biri kimi dəyərləndirib.

Rektor bütün Azərbaycan gəncliyini Gənclər günü münasibətilə təbrik edib, onlara təhsil və iş həyatında uğurlar arzulayıb.

Universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn İmanov və Tələbə Elmi Cəmiyyətinin sədri Təbrizə Bağırovanın çıxışları dinlənilib.

Sonra tədbir gənclərin təbrik çıxışları ilə davam edib.

Sonda, 2023-cü ildə Naxçıvan Dövlət Universitetinin ictimai həyatında fəal iştirakına görə fərqlənən gənclər və tələbə təşkilatları diplom və təşəkkürnamə ilə təltif olunublar.

***Pərviz Hacılı***

# Naxçıvan Dövlət Universitetində Elmi işlərin yekununa dair hesabat yığıncağı keçirilib

Universitetin Elmi Kitabxanasında təşkil edilən tədbirdə professor-müəllim heyətinin, magistr və tələbələrinin 2023-cü ildə nəşr olunmuş elmi əsərlərinin sərgisinə baxış keçirilib. Sərgidə 2023-cü ildə "Heydər Əliyev İli" münasibəti ilə Ümummilli Liderə həsr olunmuş əsərlər də nümayiş etdirilib.



Sonra akt zalında davam edən tədbirdə universitetin rektoru Elbrus İsayev 2023-cü ildə elmi fəaliyyət istiqaməti, qarşıya qoyulan hədəflər haqqında məlumat verdikdən sonra universitetin yekun elmi hesabatı dinlənilib.

Universitetin Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov 2023-cü ildəki elmi fəaliyyətinin hədəfləri və nəticələri haqqında geniş hesabat təqdim edib.

Bildirilib ki, 2023-cü ildə universitetin elmi tədqiqat fəaliyyəti müvafiq struktur bölmələri tərəfindən elm və təhsil sahəsində Azərbaycan Respublikasının qanunları, həmçinin universitetin Elmi Şurasının qərarları əsasında təşkil edilib. Universitetdə elmi-tədqiqat fəaliyyətinin məqsədyönlü aparılması məqsədilə elmi-tədqiqat planındakı tədbirlər əsasında "Elmi fəaliyyətin qiymətləndirmə meyarları" müəyyən edilib, bütün universitet əmək-daşlarının və struktur bölmələrinin elmi fəaliyyətləri bu meyarlara əsasən qiymətləndirilib.

Qeyd olunub ki, yekun elmi nəticələrə görə hazırda universitetdə çalışan 527 nəfərlik akademik heyətin 211 nəfəri elmi dərəcəlidir ki, bunların 30 nəfərini elmlər doktoru, 181 nəfərini isə fəlsəfə doktorları təşkil edir. Elmi dərəcəli heyətin akademik heyətə nisbəti universitet üzrə 40,03% təşkil edir ki, burada əvvəlki illərlə müqayisədə müsbət artım dinamikası müşahidə olunmaqdadır. 185 nəfərdən ibarət olan elmi heyətin 23-ü professor, 162-si dosentdir. Universitet üzrə 1 akademik heyətə düşən tələbə sayı 13,34 olub ki, bu da əvvəlki ilin göstəriciləri ilə müqayisədə müsbət istiqamətdə dəyişməkdədir.

Elmi potensialın yaşa və genderə görə dəyişməsi illər üzrə təhlil olunub və bildirilib ki, akademik heyətin 54 nəfəri 30 yaşdan aşağı, 120 nəfər 31-40 yaş, 101 nəfər 41-50 yaş, 110 nəfər 51-60 yaş, 88 nəfər 61-70 yaş və 53 nəfər 70 yaşdan yuxarıdır.

Universitet əməkdaşlarının nəşr olunmuş elmi əsərləri, 1 akademik heyətə düşən impakt faktorlu nəşr sayı təhlil olunub. Bildirilib ki, 28-i monoqrafiya, 8-i dərslik, 18-i dərs vəsaiti, 103-ü metodik vəsait və proqramlar olmaqla ümumilikdə 1679 nəşr qeydə alınıb. 2023-cü ildə Scopus və Web of Science bazalarında 17, digər indeksli impakt faktorlu beynəlxalq jurnallarda 231,



yerli jurnallarda 352, xaricdə keçirilmiş konfranslarda 444 və respublika konfranslarında 476 məqalə nəşr olunub. Eyni zamanda universitet üzrə 2 patent müraciəti, beynəlxalq qrand layihələrinə qoşulmalar həyata keçirilib. Universitet üzrə 1 əməkdaşa düşən nəşr sayı 2023-cü ildə 3,18 olub ki, bu da ötən illərlə müqayisədə ciddi artım göstəricisidir.

Bildirilib ki, 2023-cü ildə universitet üzrə 30 konfrans keçirilib ki, bunların 8-i beynəlxalq, 15-i respublika səviyyəli və 7-si universitet daxili konfranslardır.

Hesabatda universitet əməkdaşlarının Scopus, Web of Science, Google scholar, ResearchGate və digər elmmetrik bazalardakı vəziyyəti, bazalara daxil edilən nəşrlər, onların illər üzrə dəyişmə vəziyyəti, istinadlar ətraflı təhlil olunub.

Vurğulanıb ki, universitetdə Tələbə Elmi Cəmiyyəti xətti ilə 2023-2024-cü tədris ilində 1201 tələbə elmi-tədqiqat mövzuları ətrafında araşdırma aparılmaqdadır. Bu say göstəricisi isə universitetdə təhsilalan əyani tələbələrin 21%-nə bərabərdir. 2022-2023-cü tədris ilində bu faiz göstəricisi 20%, 2021-2022-ci tədris ilində isə 14 % olub.

2023-cü ildə bakalavriat və magistratura səviyyəsində təhsilalan 23 tələbə xarici və yerli konfranslarda çıxış edib, indeksli jurnallarda məqalələri dərc olunub.

Sonda universitetin elm sahəsində 2024-cü ildə qarşıya qoyulan hədəfləri haqqında məlumat verilib. Universitetin bazasında elmi-tədqiqat institutlarının və laboratoriyalarının yaradılması, elmi-tədqiqat işlərinin nəticələrinin tədris prosesində və istehsalatda tətbiqinin genişləndirilməsi yeni hədəf kimi müəyyənləşdirilib. Beynəlxalq və respublikadaxili qrantlar əsasında elmi-tədqiqat işlərinin yerinə yetirilməsi sahəsində fəaliyyətin genişləndirilməsi, ixtiraçılıq və patent fəaliyyəti sahəsində təlimlərin təşkili, bağlanmış beynəlxalq və respublikadaxili əməkdaşlıq müqavilələrinin şərtlərinə əməl edərək birgə elmi tədqiqatların aparılması əsas hədəflər kimi qarşıya qoyulub.

Sonda 2023-cü ildə elmi fəaliyyətə görə fərqlənən əməkdaşların mükafatlandırılıb. Universitet Elmi şurasının qərarı ilə universitet əməkdaşları və doktorantlara nüfuzlu və impakt faktorlu nəşrlərinə, elmmetrik bazalarda yüksək göstəricilərinə görə birdəfəlik mükafatlar verilib. "Akademik fəaliyyətin qiymətləndirilməsi mexanizminə görə" isə universitetin 50 əməkdaşı əməkhaqlarına 1 il müddətində 10-25% məbləğində stimullaşdırıcı əlavələrlə mükafatlandırılıb. Akademik heyətə, doktorantlara, magistrlərə və tələbələrə plaket və diplomlar təqdim olunub.

***Pərviz Hacılı - Media və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

**Baş Redaktor:**
**SƏADƏT ƏLİYEVA**
**seadetaliyeva@ndu.edu.az**

**Ünvan: AZ 7012,**
**Naxçıvan şəhəri,**
**Universitet şəhərciyi**
**Telefonlar:**
**544-08-61 (11-50)**
**yenifikir.ndu@gmail.com**

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ NDU

**Qeydiyyat №330**
**Sifariş № 52**
**Tiraj 300**

**DİZAYNER:**
**PƏRVİZ HACILI**
**"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.**